ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HÜQUQLARI HAQQINDA KONVENSİYA

7 nömrəli




# ƏLİLLİYİ OLAN UŞAQLAR DA DAXİL OLMAQLA ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN ONLARI TƏMSİL EDƏN TƏŞKİLATLAR VASİTƏSİLƏ

# KONVENSİYANIN İCRASINDA VƏ MONİTORİNQDƏ İŞTİRAKI HAQQINDA 7 NÖMRƏLİ ŞƏRHİ

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi hesabına Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən tərcümə edilərək dərc olunmuşdur. Bu nəşrin müəllifi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Bu nəşrdə istifadə olunan məzmun və material heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

UNITED NATIONS HUMAN RIGHTS OFFICE OF THE HIGH COMMISSIONER

# İnsan Hüquqları

## Əlilliyi olan uşaqlar da daxil olmaqla əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə Konvensiyanın icrasında və monitorinqində iştirakı haqqında 7 nömrəli ümumi şərh

Birləşmiş Millətlər Təşkilatı

Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya

Paylanma: Ümumi
9 noyabr 2018-ci il
Əsli: İngilis dili
Qeyri-rəsmi tərcümə

# Əlilliyi olan uşaqlar da daxil olmaqla əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə Konvensiyanın icrasında və monitorinqində iştirakı haqqında 7 (2018) nömrəli ümumi şərh

## I. Giriş

1. Əlilliyi olan şəxslər, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya ilə bağlı danışıqlarda, onun işlənib hazırlanmasında və tərtibində tam şəkildə iştirak etmiş və həlledici rol oynamışdır. Əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar və onların tərəfdaşları vasitəsilə əlilliyi olan şəxslərlə sıx məsləhətləşmə və onların fəal şəkildə cəlb olunması Konvensiyanın keyfiyyətinə və onun bu qrupa daxil olan şəxslər üçün aktuallığına müsbət təsir göstərmişdir. Bu, həmçinin, əlilliyi olan şəxslərin gücünü, təsirini və potensialını göstərmiş və bu prosesin nəticəsində insan hüquqları haqqında mütərəqqi bir saziş əldə olunmuş, əlilliyin insan hüquqlarına əsaslanan modeli yaranmışdır. Beləliklə, əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə əlilliyi olan şəxslərin səmərəli və əhəmiyyətli iştirakı Konvensiyanın təməlində dayanır.

2. Hər kəsin öz həyatına və hüquqlarına təsir edən qərarların verilməsində fəal və məlumatlı şəkildə iştirakı dövlət qərarlarının qəbulu proseslərində insan hüquqlarına əsaslanan yanaşmanın tətbiqi ilə uzlaşır[1] və səmərəli idarəçiliyi və sosial hesabatlılığı təmin edir.[2]

* Komitənin 20-ci sessiyasında (27 avqust - 21 sentyabr 2018-ci il) Komitə tərəfindən qəbul edilmişdir.

[1] BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, "Yoxsulluğun azaldılması üzrə strategiyalara insan hüquqları əsasında yanaşmaya dair prinsiplər və rəhbər qaydalar", 64-cü bənd

[2] A/HRC/31/62, 13-cü bənd

3. İctimai həyatda iştirak prinsipi İnsan Hüquqları üzrə Ümumi Bəyannamənin 21-ci maddəsində dəqiq təsbit edilir və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 25-ci maddəsində bir daha təsdiq edilir. İnsan hüquqları sahəsindəki digər sənədlərdə də iştirak bir prinsip və insan hüququ kimi tanınır. Buraya, məsələn, "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" Beynəlxalq Konvensiyanın 5-ci maddəsinin "c" bəndi, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiyanın 7-ci maddəsi və "Uşaq hüquqları haqqında" Konvensiyanın 12-ci maddəsi və 23-cü maddəsinin 1-ci bəndi daxildir. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada iştirak həm ümumi öhdəlik, həm də çoxsahəli məsələ kimi tanınır. Mahiyyət etibarilə, Konvensiya iştirakçı dövlətlərin ictimai həyatda iştirakın daha geniş konsepsiyası çərçivəsində əlilliyi olan şəxslərlə sıx məsləhətləşmək və onları fəal şəkildə cəlb etmək öhdəliyini (4-cü maddənin 3-cü bəndi) və monitorinq prosesində əlilliyi olan şəxslərin iştirakını (33-cü maddənin 3-cü bəndi) nəzərdə tutur.[3]

4. Bir çox hallarda əlilliyi olan şəxslərin həyatına təsir edən və ya onların həyatı ilə əlaqəli olan məsələlərlə bağlı qərarların qəbulu prosesində əlilliyi olan şəxslərlə məsləhətləşmə aparılmır və onların adından qərarların verilməsi davam edir. Son on illər ərzində əlilliyi olan şəxslərin öz insan hüquqlarının tanınması və həmin hüquqların müəyyənləşdirilməsindəki rollarının tanınmasını tələb edən hərəkatlarının meydana çıxması ilə əlaqədar, onlarla məsləhətləşmənin əhəmiyyəti qəbul edilmişdir. "Bizim haqqımızda qərarlar yalnız bizim iştirakımızla mümkündür" şüarı əlilliyi olan şəxslərin hüquqlarına dair hərəkatın fəlsəfəsi və tarixi ilə səsləşir. Sözügedən hərəkat isə əhəmiyyətli iştirak prinsipinə əsaslanır.

5. Əlilliyi olan şəxslər hələ də ictimai həyatda iştirak baxımından davranış xarakterli, fiziki, hüquqi, iqtisadi, sosial və kommunikasiya xarakterli əngəllərlə üzləşir. Konvensiya qüvvəyə minməzdən öncə, əlilliyi olan şəxslərin fikirlərinin əvəzinə, üçüncü tərəf nümayəndələrin, məsələn, əlilliyi olan şəxslər "üçün" fəaliyyət göstərən təşkilatların fikirləri nəzərə alınırdı.

6. Birgə iştirak şəraitində həyata keçirilən proseslər və əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə onların Konvensiyanın razılaşdırılmasına və

[3] eyni mənbə, 14-cü bənd.

hazırlanmasına cəlb olunması tam və səmərəli iştirak prinsipinin, fərdi müstəqilliyin və fərdin öz qərarlarını verməkdə azadlığının mükəmməl nümunəsinə çevrildi. Nəticədə, insan hüquqları sahəsində beynəlxalq hüquq hazırda əlilliyi olan şəxsləri birmənalı şəkildə bütün insan hüquqları və əsas azadlıqların "subyektləri" kimi tanıyır.[4]

7. Öz hüquqi praktikasına əsaslanaraq, Komitə bu ümumi şərhdə İştirakçı dövlətlərin 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndindən irəli gələn öhdəliklərini və onların icrasını aydınlaşdırmağa səy göstərir. Komitə İştirakçı dövlətlərin ötən onillik ərzində 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinin müddəalarının icrası baxımından əldə etdiyi irəliləyişi qeyd edir. Buraya məsələn, əlilliyi olan şəxslərin təşkilatlarına maliyyə və digər yardımın verilməsi, əlilliyi olan şəxslərin Konvensiyanın 33-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq yaradılmış müstəqil monitorinq strukturlarına və monitorinq proseslərinə daxil edilməsi daxildir. Bundan əlavə, bəzi iştirakçı dövlətlər 4-cü maddənin 3-cü bəndi və 35-ci maddənin 4-cü bəndinə uyğun olaraq öz ilkin və dövri hesabatlarının hazırlanmasında əlil təşkilatları ilə məsləhətləşmişdir.

8. Bununla belə, Komitə 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinin məqsədləri və mahiyyəti ilə onların icra səviyyəsi arasında əhəmiyyətli boşluğun olduğunu müşahidə etməkdə davam edir. Bu, digər amillərlə yanaşı, əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə, siyasət və proqramların hazırlanması və icra edilməsinə cəlb olunmaması və onlarla əhəmiyyətli məsləhətləşmənin aparılmaması ilə bağlıdır.

9. İştirakçı dövlətlər ilk növbədə əlilliyi olan şəxslərin öz həyat təcrübələrini və həyata keçirilməli hüquqları barədə biliklərini nəzərə alaraq, əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə onların bu cür proseslərə cəlb olunmasının və iştirakının təmin olunmasının qərar qəbulu proseslərinə müsbət təsirini qəbul etməlidir. İştirakçı dövlətlər, həmçinin, Konvensiyanın icrası və monitorinqi üçün həyata keçirilən bütün tədbirlərdə və Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi və onun məqsədlərinin icrasında Konvensiyanın ümumi prinsiplərini nəzərə almalıdır.

[4] eyni mənbə, 16–17-ci bəndlər.

## II. 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinin normativ məzmunu

### A. "Təmsil edən təşkilatlar" anlayışı

10. Əlilliyi olan şəxslərin onları "təmsil edən təşkilatlar" və ya əlil təşkilatları vasitəsilə cəlb olunması və iştirakı həm 4-cü maddənin 3-cü bəndinin, həm də 33-cü maddənin 3-cü bəndinin ayrılmaz elementidir. Düzgün icra üçün iştirakçı dövlətlər və müvafiq maraqlı tərəflər "əlil təşkilatları" anlayışının əhatə dairəsini müəyyən etməli və onların çox zaman mövcud olan müxtəlif növlərini tanımalıdır.

11. Komitə hesab edir ki, əlil təşkilatları Konvensiyada tanınan prinsip və hüquqlara söykənməli, onlara sadiq qalmalı və tam hörmət etməlidir. Bu təşkilatlar yalnız əlilliyi olan şəxslərin rəhbərlik etdiyi, yönləndirdiyi və idarə etdiyi təşkilatlar ola bilər. Onların üzvlərinin bariz çoxluğu əlilliyi olan şəxslərin özləri arasından qəbul edilməlidir.[5] Əlilliyi olan qadınların, əlilliyi olan uşaqların və İİV/QİÇS-lə yaşayan şəxslərin təşkilatları bu Konvensiya çərçivəsində əlil təşkilatları hesab edilir. Əlil təşkilatları müəyyən səciyyəvi xüsusiyyətlərə malikdir. Buraya aşağıdakılar daxildir:

(a) Onlar ilk növbədə əlilliyi olan şəxslərin hüquqları ilə bağlı birgə hərəkət etmək, onların hüquqlarını birgə ifadə etmək, təşviq etmək, həyata keçirmək və/yaxud müdafiə etmək məqsədilə yaradılır və ümumən bu cür tanınmalıdır;

(b) Onlar əlilliyi olan şəxslərin özlərini işə götürür, onlar tərəfindən təmsil olunur, onları səlahiyyətləndirir və ya onların namizədliyini irəli sürür/təyin edirlər;

(c) Onlar əksər hallarda hər hansı siyasi partiya ilə bağlı olmur və dövlət orqanlarından və qoşulduqları/üzvü olduqları hər hansı digər qeyri-hökumət təşkilatlarından asılı olmadan fəaliyyət göstərirlər;

(d) Onlar faktiki və ya düşünülən sağlamlıq pozuntusu əsasında bir və ya daha artıq şəxs kateqoriyasını təmsil edə və ya bütün əlilliyi olan şəxsləri üzvlüyə qəbul edə bilərlər;

---

[5] CRPD/C/11/2, II Qoşma, 3-cü bənd

(e) Onlar əlilliyi olan şəxslərin müxtəlif xüsusiyyətləri (məsələn, cins, gender, irq, yaş yaxud miqrant və ya qaçqın statusu baxımından) əks etdirən qruplarını təmsil edə bilər. Onlar transversal kimlik əlaməti (məsələn, əlilliyi olan uşaqlar, qadınlar və ya yerli əhali) üzrə şəxs kateqoriyalarını əhatə edə bilər və müxtəlif sağlamlıq pozuntularına malik olan üzvlərdən ibarət ola bilər;

(f) Onlar miqyasına görə yerli, milli və ya beynəlxalq ola bilər;

(g) Onlar əlilliyi olan şəxslərin fərdi təşkilatları, koalisiyaları yaxud əlilliyin müxtəlif növləri üzrə təşkilatlar və ya çətir təşkilatlar kimi fəaliyyət göstərə, digərləri ilə yanaşı dövlət orqanları, beynəlxalq təşkilatlar və özəl qurumlarla qarşılıqlı əlaqələrində əlilliyi olan şəxslərin birgə və razılaşdırılmış mövqelərini təqdim etməyə səy göstərə bilərlər.

12. Komitənin müəyyən etdiyi müxtəlif növ əlil təşkilatları arasında aşağıdakılar yer alır:

(a) *Əlilliyi olan şəxslərin çətir təşkilatları* əlilliyi olan şəxsləri təmsil edən təşkilatların koalisiyalarıdır. Qərar qəbulunun hər səviyyəsində bir və ya iki çətir təşkilatın olması arzuediləndir. Onlar açıq, demokratik olmaq və əlilliyi olan şəxslərin geniş müxtəlifliyə malik qruplarını tam şəkildə təmsil etmək üçün bütün əlil təşkilatlarını üzv olaraq qəbul etməlidir. Onlar əlilliyi olan şəxslər tərəfindən təşkil edilməli, onlara əlilliyi olan şəxslər rəhbərlik etməli və nəzarət etməlidir. Onlar yalnız öz üzv təşkilatları adından və yalnız qarşılıqlı maraq doğuran və birgə qərara alınmış məsələlər barədə danışır. Lakin onlar çox vaxt fərdi xüsusiyyətlər barədə müfəssəl məlumatlara malik olmadığından, əlilliyi olan şəxsləri fərdi şəkildə təmsil edə bilməz. Xüsusi icmaları təmsil edən fərdi əlil təşkilatları bu rolu oynamaq üçün daha əlverişli imkana malikdir. Bununla belə, əlilliyi olan şəxslər onları hansı təşkilatların təmsil etməsini istədiklərinə özləri qərar verə bilməlidirlər. İştirakçı dövlətlər daxilində çətir təşkilatların mövcudluğu heç bir halda, əlilliyi olan şəxslərin və ya əlil təşkilatlarının məsləhətləşmələrdə iştirakına və ya əlilliyi olan şəxslərin maraqlarını təşviqinin digər formalarında iştirakına mane olmamalıdır;

(b) *Əlilliyin müxtəlif növləri üzrə təşkilatlar* geniş spektrli sağlamlıq pozuntularının hamısını və ya bir qismini təmsil edən şəxslərdən ibarət

olurlar. Onlar daha çox yerli və/yaxud milli səviyyədə təşkil olunsa da, regional və beynəlxalq səviyyələrdə də mövcud ola bilər;

(c) *Özünütəşviqat təşkilatları* müxtəlif, çox zaman ixtiyari formada və/yaxud yerli səviyyədə təşkil olunmuş şəbəkə və platformalarda əlilliyi olan şəxsləri təmsil edirlər. Onlar əlilliyi olan şəxslərin, xüsusilə əqli əlilliyi olan şəxslərin hüquqları naminə təşviqat aparır. Onların yaradılması, üzvlərinin öz fikirlərini ifadə edə bilməsinə göstərilən zəruri, bəzən isə hərtərəfli dəstəklə birlikdə siyasi iştirak və qərarların qəbulu, monitorinq və icra proseslərində iştirak baxımından fundamental əhəmiyyət daşıyır. Bu, xüsusilə öz hüquq qabiliyyətini həyata keçirmək imkanından məhrum edilən, müəssisələrə düşmüş və/yaxud səs vermək hüququndan məhrum edilmiş şəxslər üçün uyğundur. Bir çox ölkələrdə üzvlərini hüquq qabiliyyətindən məhrum edən qanun və digər normativ-hüquqi aktlar səbəbindən hüquqi statusun verilməməsi nəticəsində özünütəşviqat təşkilatlarına qarşı ayrı-seçkiliyə yol verilir;

(d) *Əlilliyi olan şəxslərin ailə üzvləri və/yaxud qohumlarından ibarət təşkilatlar* əqli əlillikləri olan, demensiyalı və/yaxud əlilliyi olan uşaqları olan qohumlarının maraqlarının dəstəklənməsi, təşviqi və təmin edilməsində və müstəqilliyinin və fəal iştirakının dəstəklənməsində vacib rol oynayır və əlilliyi olan şəxslərin bu qrupları, onlara ailələri tərəfindən vahid şəbəkə və təşkilatlar formasında dəstək göstərilməsini istədikdə meydana çıxır. Bu cür hallarda bu təşkilatlar məsləhətləşmə, qərarların qəbulu və monitorinq proseslərinə daxil edilməlidir. Valideynlərin, qohumların və əlilliyi olan şəxslərə qulluq edən şəxslərin bu cür təşkilatlardakı rolu əlilliyi olan şəxslərin öz fikirlərini ifadə etməsinə və öz həyatlarına tam nəzarəti ələ almasına kömək etmək və bunun üçün onların hüquq və imkanlarını artırmaq olmalıdır. Bu cür təşkilatlar əlilliyi olan şəxslərin məsləhətləşmələrə cəlb olunmaq və öz fikirlərini ifadə etmək hüququnu təmin etmək və bu hüquqlara hörmət etmək üçün yardımla müşayiət olunan qərar qəbulu proseslərini təşviq etmək və onlardan istifadə etmək üçün fəal şəkildə iş aparmalıdır;

(e) *Əlilliyi olan qadın və qızların təşkilatları* müxtəlif tərkibli qrup kimi əlilliyi olan qadınları və qızları təmsil edir. Əlilliyi olan qadın və qızların

müxtəlifliyi bütün növ əlillikləri əhatə etməlidir.[6] Müstəsna olaraq və ya qeyri-mütənasib şəkildə əlilliyi olan qadın və qızlara təsir edən konkret məsələlər və ümumilikdə qadın və qızlara dair məsələlər, məsələn, gender bərabərliyi siyasətləri üzrə məsləhətləşmələrdə əlilliyi olan qadın və qızların iştirakının təmin edilməsi şərtdir;

(f) *Əlilliyi olan uşaqların və gənclərin təşkilatları və təşəbbüsləri* uşaqların ictimai həyatda və icmanın həyatında iştirakı, eləcə də onların dinlənilmək hüququ və ifadə və birləşmə azadlığı üçün fundamental əhəmiyyət daşıyır. Böyüklər əlilliyi olan uşaqların və gənclərin rəsmi və ya qeyri-rəsmi şəkildə, başqa vasitələrlə yanaşı böyüklər və digər uşaq və gənclərlə əməkdaşlıq vasitəsilə öz təşkilat və təşəbbüslərini yaratmasına və bu çərçivədə hərəkət etməsinə imkan verən mühitin təşviqində önəmli və dəstəkləyici rola malikdir.

## B. Əlil təşkilatları ilə digər vətəndaş cəmiyyəti təşkilatları arasında fərqləndirmə

13. Əlil təşkilatları əlilliyi olan şəxslər "üçün" fəaliyyət göstərən təşkilatlardan fərqlidir. İkinci qrupa daxil olan təşkilatlar əlilliyi olan şəxslər üçün xidmətlər təmin edir və/yaxud təşviqat aparır. Bu isə təcrübədə bu cür təşkilatların özəl qurumlar kimi öz məqsədlərini əlilliyi olan şəxslərin hüquqlarından üstün tutduğu maraq toqquşması ilə nəticələnə bilir. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə ifadə etdiyi mövqelərinə xüsusi əhəmiyyət verməli, bu cür təşkilatların potensialının gücləndirilməsinə və səlahiyyətlərinin artırılmasına dəstək verməli və qərar qəbulu proseslərində onların mövqelərinin müəyyənləşdirilməsinə prioritet verməlidir.[7]

14. Əlil təşkilatları ilə vətəndaş cəmiyyəti təşkilatları arasında da fərqləndirmə aparılmalıdır. "Vətəndaş cəmiyyəti təşkilatı" termini müxtəlif növ təşkilatları, o cümlədən elmi-tədqiqat institutlarını və təşkilatlarını, xidmət icraçılarının təşkilatlarını və digər özəl maraqlı tərəfləri ehtiva edir. Əlil təşkilatları vətəndaş cəmiyyəti təşkilatlarının spesifik bir növüdür. Onlar

[6] Əlilliyi olan qadın və qızlar haqqında 3 (2016) nömrəli Ümumi Şərh, 5-ci bənd
[7] A/HRC/31/62, 38-ci bənd; və A/71/314, 64-cü bənd.

çətir təşkilat kimi fəaliyyət göstərən ümumi vətəndaş cəmiyyəti təşkilatının və/yaxud koalisiyaların üzvü ola bilər. Ola bilər ki, bu təşkilat/koalisiyalar spesifik olaraq əlilliyi olan şəxslərin hüquqlarını təşviq etməsə də, onların hüquqlarının insan hüquqları gündəliyinə inteqrə edilməsinə dəstək göstərsin. 33-cü maddənin 3-cü bəndinə əsasən, bütün vətəndaş cəmiyyəti təşkilatları, o cümlədən əlil təşkilatları Konvensiyanın monitorinqində rol oynayır. İştirakçı dövlətlər əlilliyi olan şəxslərlə bağlı məsələlərlə məşğul olarkən, əlil təşkilatlarının fikirlərinə prioritet verməli, vətəndaş cəmiyyəti təşkilatları və digər maraqlı tərəflərdən Konvensiyada nəzərdə tutulan hüquqlar və ayrı-seçkilik, sülh və ekoloji hüquqlar kimi digər mövzularla bağlı işlərində əlil təşkilatları ilə məsləhətləşməyi və onları cəlb etməyi xahiş edən çərçivələr işləyib hazırlamalıdır.

## C. 4-cü maddənin 3-cü bəndinin tətbiq dairəsi

15. İştirakçı dövlətlər 4-cü maddənin 3-cü bəndində nəzərdə tutulan öhdəliklərini yerinə yetirmək üçün əlilliyi olan şəxslərlə onların öz təşkilatları vasitəsilə məsləhətləşmək və onları fəal şəkildə cəlb etmək öhdəliyini Hökumətin bütün səviyyələrində və qollarındakı normativ-hüquqi çərçivə və prosedurlara daxil etməlidir. İştirakçı dövlətlər, həmçinin, əlilliyi olan şəxslərlə məsləhətləşmələri və onların cəlb olunmasını ümumi xarakterli və ya spesifik olaraq əlilliyi olan şəxslərlə bağlı olub-olmamasından asılı olmayaraq, qanunların, qaydaların və siyasətlərin təsdiqindən öncəki icbari addım kimi nəzərdə tutmalıdır. Bu səbəbdən, məsləhətləşmələr erkən mərhələlərdə başlamalı və bütün qərar qəbulu proseslərində yekun məhsula töhfə verməlidir. Məsləhətləşmələrə yerli, milli, regional və beynəlxalq səviyyələrdə əlilliyi olan şəxslərin geniş spektrini təmsil edən təşkilatlar daxil edilməlidir.

16. Sağlamlıq pozuntusunun növünə görə heç bir istisna olmadan, bütün əlilliyi olan şəxslər, məsələn, psixososial və ya əqli əlillikləri olan şəxslər ayrı-seçkiliyə məruz qalmadan digərləri ilə bərabər əsasda səmərəli və tam iştirak edə bilər.[8] Əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə məsləhətləşmələrdə iştirak etmək hüququ cinsi oriyentasiya və ya gender kimliyi kimi amillərdən asılı olmayaraq, bütün əlilliyi olan şəxslər üçün

[8] A/HRC/19/36, 15-17-ci bəndlər.

bərabər əsasda tanınmalıdır. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin hüquqlarını və əsas azadlıqlarını təmin etmək üçün ayrı-seçkiliklə mübarizə üzrə hərtərəfli çərçivə qəbul etməli, fərdlər və ya əlil təşkilatlarına qarşı onların üzvlərinin cinsi, genderi və ya sosial statusu əsasında cinayət məsuliyyəti nəzərdə tutan və onları ictimai-siyasi həyatda iştirak hüququndan məhrum edən qanunları ləğv etməlidir.

17. İştirakçı dövlətlərin əlil təşkilatları ilə məsləhətləşmələri təmin etməklə bağlı hüquqi öhdəliyi dövlət qərarlarının qəbul edildiyi yerlərə və həmçinin elmi-tədqiqat, universal dizayn, tərəfdaşlıqlar, səlahiyyətlərin ötürülməsi və vətəndaş nəzarəti kimi digər sahələrə çıxış imkanını əhatə edir.[9] Bundan əlavə, bu öhdəlik qlobal və/yaxud regional əlil təşkilatlarını da əhatə edir.

## 1. Əlilliyi olan şəxslərə dair məsələlər

18. 4-cü maddənin 3-cü bəndində qeyd edilən "əlilliyi olan şəxslərə dair məsələlər" ifadəsi əlilliyi olan şəxslərin hüquqlarına birbaşa və ya dolayı şəkildə təsir edə biləcək bütün növ qanunverici, inzibati və digər tədbirləri əhatə edir. Əlilliyi olan şəxslərə dair məsələlərin geniş təfsiri iştirakçı dövlətlərə inklüziv siyasətlər çərçivəsində əlilliyi aktuallaşdırmaqla, əlilliyi olan şəxsləri digərləri ilə bərabər əsasda nəzərə almaq imkanı verir. Bu, həmçinin, yeni qanunverici, inzibati və digər tədbirlər barədə qərar verərkən əlilliyi olan şəxslərin bilik və həyat təcrübələrinin nəzərə alınmasını təmin edir. Buraya onların həyatlarına təsir edə biləcək ümumi qanunlar və dövlət büdcəsi və ya əlilliyi olan şəxslərə aid qanunlar kimi məsələlərlə bağlı qərar qəbulu prosesləri daxildir.[10]

19. 4-cü maddənin 3-cü bəndində nəzərdə tutulan məsləhətləşmələr iştirakçı dövlətlərin Konvensiyaya və əlilliyi olan şəxslərin hüquqlarına zidd olan hər hansı hərəkət və ya təcrübəyə yol verməsinin qarşısını alır. Müzakirə edilməkdə olan tədbirlərin birbaşa və ya dolayı təsiri barədə mübahisə hallarında müzakirə subyekti olan məsələnin əlilliyi olan şəxslərə qeyri-mütənasib təsir göstərməyəcəyini və bu səbəbdən heç bir məsləhətləşməyə ehtiyac olmadığını sübut etmək vəzifəsi iştirakçı dövlətlərin dövlət orqanlarının üzərinə düşür.

[9] A/HRC/31/62, 63-cü bənd; və A/HRC/34/58, 63-cü bənd.
[10] A/HRC/31/62, 64-cü bənd.

20. Əlilliyi olan şəxslərə birbaşa təsir edən məsələlərə dair nümunələrə de-institutlaşma, sosial sığorta və əlillik pensiyaları, fərdi yardım, müyəssərliklə bağlı tələblər və ağlabatan uyğunlaşdırma tədbirlərinə dair siyasətlər daxildir. Əlilliyi olan şəxslərə dolayı şəkildə təsir edən tədbirlərə konstitusiya qanunları, seçki hüquqları, ədalət mühakiməsinə çıxış, əlilliklə bağlı siyasətləri və ya təhsil, səhiyyə, əmək və məşğulluq sahələrində dövlət siyasətlərini tənzimləyən inzibati qurumların təyin edilməsi daxil ola bilər.

## 2. "Sıx məsləhətləşmə aparmaq və fəal şəkildə cəlb etmək"

21. Əlilliyi olan şəxslərlə onları təmsil edən təşkilatlar vasitəsilə "sıx məsləhətləşmə aparmaq və fəal şəkildə cəlb etmək" öhdəliyi insan hüquqları sahəsində beynəlxalq hüquqdan irəli gələn öhdəlik olub, hər bir şəxsin öz şəxsi müstəqilliyi və öz müqəddəratını təyinetmə hüququ əsasında qərarların qəbulu proseslərində iştirak üçün hüquq qabiliyyətinin tanınmasını tələb edir. Konvensiyanın icrasına dair qərarların qəbulu proseslərində və digər qərar qəbulu proseslərində məsləhətləşmə və cəlbetmə əlilliyi olan bütün şəxsləri əhatə etməli və zərurət olduqda yardımla müşayiət olunan qərar qəbulu modellərini nəzərdə tutmalıdır.

22. İştirakçı dövlətlər sistemli və açıq şəkildə əlil təşkilatlarına yaxınlaşmalı, onlarla məqsədyönlü şəkildə və vaxtında məsləhətləşməli və onları cəlb etməlidir. Bu, əlçatan rəqəmsal formatlar və tələb olunduqda ağlabatan uyğunlaşdırmalar, məsələn, işarə dili tərcüməçiləri, asan oxunan mətnlər və sadə dil, Brayl əlifbası və taktil ünsiyyət vasitələrinin təmin edilməsi vasitəsilə bütün müvafiq məlumatlara, o cümlədən dövlət orqanlarının saytlarına çıxış imkanının mövcudluğunu tələb edir. Açıq məsləhətləşmələr əlilliyi olan şəxsləri digərləri ilə bərabər əsaslarla dövlət qərarlarının qəbul edildiyi bütün yerlərə, o cümlədən milli fondlara və Konvensiyanın icrası və monitorinqi ilə əlaqəli dövlət qərarlarının qəbuluna məsul orqanlara çıxışla təmin edir.

23. Dövlət orqanları əlilliyi olan şəxslərlə birbaşa əlaqəli olan məsələlərlə məşğul olarkən əlil təşkilatlarının fikir və mövqelərinə lazımi şəkildə diqqət yetirməli və prioritet verməlidir. Qərar qəbulu proseslərinə rəhbərlik edən dövlət orqanları bu proseslərin nəticələri barədə əlil təşkilatlarını məlumatlandırmaq, o cümlədən gəlinən nəticələr, nəzərə alınan məsələlər və onların fikirlərinin necə və niyə nəzərdən keçirilməsinə dair qərarların

əsaslandırılmasına dair anlaşılan formada konkret izahat vermək vəzifəsini daşıyır.

### 3. Əlilliyi olan uşaqların daxil edilməsi

24. 4-cü maddənin 3-cü bəndi, həmçinin, Konvensiyanın həyata keçirilməsinə yönələn qanunvericiliyin və strategiyaların işlənib hazırlanması və tətbiqi və digər qərar qəbul prosesləri zamanı əlilliyi olan uşaqları təmsil edən təşkilatlar və ya onlara dəstək göstərən təşkilatlar vasitəsilə "uşaqların daxil edilməsinin" vacibliyini təsdiq edir. Bu təşkilatlar əlilliyi olan uşaqların fərdi müstəqilliyinin və fəal iştirakının asanlaşdırılması, təşviqi və təmin edilməsində həlledici rol oynayır. İştirakçı dövlətlər birləşmə azadlığını qoruyub saxlamaq öhdəliyi çərçivəsində əlilliyi olan uşaqları təmsil edən təşkilatların yaradılması və fəaliyyəti üçün əlverişli mühit yaratmalı, o cümlədən dəstək üçün zəruri resursları təmin etməlidir.

25. İştirakçı dövlətlər hər kəsin uşaqların iradəsini və seçimlərini anlamasını və hörmət etməsini, həmçinin onların fərdi inkişaf potensiallarını hər zaman nəzərə almasını təmin etmək üçün qanunlar, qaydalar qəbul etməli və proqramlar işləyib hazırlamalıdır. Fərdi müstəqillik hüququnun tanınması və təşviqi uşaqlar da daxil olmaqla əlilliyi olan şəxslərin hüquq sahibləri olaraq tanınması baxımından son dərəcə böyük əhəmiyyət daşıyır.[11] Əlilliyi olan uşaqlar Konvensiyaya uyğun olaraq adekvat qanunvericilik və proqramların hazırlanmasında zəruri olan öz şəxsi tələb və təcrübələrini istənilən digər şəxslərdən daha yaxşı ifadə etmək imkanına malikdir.

26. İştirakçı dövlətlər əlilliyi olan uşaqların öz fikirlərini ifadə etməyə dəvət edildiyi seminarlar və ya görüşlər təşkil edə bilər. Onlar, həmçinin, açıq çağırışlarla əlilliyi olan uşaqları spesifik mövzular üzrə inşalar yazmağa dəvət edə, onları öz şəxsi təcrübələrini və ya həyatdan gözləntilərini ətraflı təsvir etməyə dəvət edə bilərlər. Bu inşalar uşaqların özlərinin verdiyi məlumatlar kimi ümumiləşdirilərək qərar qəbulu proseslərinə daxil edilə bilər.

[11] Konvensiyanın 7-ci maddəsinin 3-cü bəndi. Bax: Uşaq Hüquqları üzrə Komitənin "Uşağın dinlənilmək hüququ haqqında" 12 (2009) nömrəli Ümumi Şərhi, 134-cü bənd.

## 4. Tam və səmərəli iştirak

27. Cəmiyyətdə "tam və səmərəli iştirak" (3-cü maddənin "c" bəndi) dedikdə, bütün şəxsləri, o cümlədən əlilliyi olan şəxsləri cəlb etməklə onlarda cəmiyyətə mənsubluq və cəmiyyətin bir hissəsi olma hissi yaratmaq nəzərdə tutulur. Buraya həvəsləndirilmək və zəruri dəstəklə təmin olunmaq, o cümlədən yaşıdlarından dəstək almaq və cəmiyyətdə iştirak üçün dəstək almaq, eləcə də stiqmaya məruz qalmamaq və özünü cəmiyyət içində ifadə edərkən təhlükəsiz hiss etmək və hörmət edilmək daxildir. Tam və səmərəli iştirak iştirakçı dövlətlərin sağlamlıq pozuntularının geniş spektrini təmsil edən əlilliyi olan şəxslərin iştirakına şərait yaratması və onlarla məsləhətləşməsini tələb edir.

28. İştirak etmək hüququ mülki və siyasi hüquqdur və hər hansı formada büdcə məhdudiyyətinə məruz qalmadan dərhal yerinə yetirilməli olan, Konvensiyaya dair qərarların qəbulu, icra və monitorinq proseslərinə şamil edilən öhdəlikdir. Bu mərhələlərin hər birində əlil təşkilatlarının iştirakına təminat verildikdə, əlilliyi olan şəxslər onların hüquqlarını yaxşılaşdıran və ya onlara əngəl törədən tədbirləri daha yaxşı müəyyən edə və göstərə bilər. Bu isə sonda bu cür qərar qəbulu proseslərində daha yaxşı nəticələr əldə etməyə imkan verir. Tam və səmərəli iştirak bir dəfəlik fərdi hadisə kimi deyil, proses kimi başa düşülməlidir.[12]

29. Əlilliyi olan şəxslərin Konvensiyanın icrasında və monitorinqində iştirakı o halda mümkün olur ki, bu şəxslər Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19, 21, və 22-ci maddələrində nəzərdə tutulan ifadə, dinc toplaşma və birləşmə azadlığı hüquqlarını həyata keçirə bilirlər. Konvensiyanın icrasına və monitorinqinə yönələn dövlət qərarlarının qəbulu proseslərinə cəlb olunan əlilliyi olan şəxslər və onları təmsil edən təşkilatlar insan hüquqları müdafiəçisi qismində tanınmalı,[13] xüsusilə fərqli fikirlər ifadə edərkən hədə-qorxu, təzyiq və qisas tədbirlərindən qorunmalıdırlar.

30. İştirak etmək hüququ adekvat məhkəmə icraatı və dinlənilmək hüququna dair öhdəlikləri də əhatə edir. Dövlət qərarlarının qəbulu prosesinə əlil təşkilatlarını fəal şəkildə cəlb edən və onlarla sıx

[12] 12 nömrəli Ümumi Şərh, 133-cü bənd.
[13] Bax: Baş Assambleyanın 53/144 saylı qətnaməsi, qoşma

məsləhətləşən iştirakçı dövlətlər həm də əlilliyi olan şəxslərin ictimai və siyasi həyatda tam və səmərəli iştirak hüququnu, o cümlədən səs vermək və seçkilərdə namizədliyini irəli sürmək hüququnu həyata keçirir (Konvensiyanın 29-cu maddəsi).

31. Tam və səmərəli iştirak əlilliyi olan şəxslərin həm yerli, regional, milli və beynəlxalq səviyyələrdə qərarların qəbuluna məsul müxtəlif orqanlarda, həm də milli insan hüquqları institutlarında, xüsusi komitələrdə, şuralarda və regional və ya bələdiyyə təşkilatlarında cəlb olunmasını ehtiva edir. İştirakçı dövlətlər hər hansı təmsilçi orqanlara əlilliyi olan şəxslərin namizədliyinin irəli sürülməsi və ya seçilməsi imkanını öz qanunvericiliyində və praktikasında tanımalıdır: məsələn, əlilliyi olan şəxslərin namizədliyinin bələdiyyə səviyyəsində əlillik şuralarına irəli sürülməsi və ya milli insan hüquqları institutlarının tərkibində əlilliyi olan şəxslərin konkret hüquqları üzrə vəzifələrə irəli sürülməsi təmin edilə bilər.

32. İştirakçı dövlətlər əlil təşkilatlarının beynəlxalq səviyyədə, məsələn, dayanıqlı inkişaf üzrə yüksək səviyyəli siyasi forumda və regional və universal insan hüquqları mexanizmlərində iştirakını gücləndirməlidir. Əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə iştirakı bununla da dövlət resurslarının daha səmərəli və bərabər istifadəsi ilə nəticələnəcək və bu şəxslər və onların icmaları üçün nəticələrin yaxşılaşmasına gətirib çıxaracaqdır.

33. Tam və səmərəli iştirak həmçinin sosial dəyişiklik üçün transformativ vasitə kimi çıxış edə, fərdlərin müstəqilliyinin və hüquq və imkanlarının artırılmasını təşviq edə bilər. Qərar qəbulu prosesinin bütün formalarında əlil təşkilatlarının iştirakı bu cür şəxslərin təşviqat və danışıq aparmaq qabiliyyətini gücləndirir, onlara öz fikirlərini daha əsaslı şəkildə ifadə etmək, öz məqsədlərini realizə etmək, öz vahid və müxtəlif mövqelərini daha möhkəm səsləndirmək imkanı verir. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin cəmiyyətə qoşulmasına nail olmaq və onlara qarşı ayrı-seçkiliklə mübarizə aparmaq istiqamətində bir tədbir kimi onların əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə tam və səmərəli iştirakını təmin etməlidir. Tam və səmərəli iştirakı təmin edən və əlil təşkilatları ilə işləyən iştirakçı dövlətlər

şəffaflığı və hesabatlılığı yaxşılaşdırır və bu, onların bu cür şəxslərin tələblərini nəzərə almasına imkan verir.[14]

## D. 33-cü maddə: vətəndaş cəmiyyətinin milli icra və monitorinqə cəlb olunması

34. Konvensiyanın 33-cu maddəsi milli icra mexanizmlərinin və müstəqil monitorinq strukturlarının yaradılmasını və əlil təşkilatlarının onlarda iştirakını nəzərdə tutur. 33-cü maddə 4-cü maddənin 3-cü bəndinin əlavəsi kimi oxunmalı və başa düşülməlidir.

35. 33-cü maddənin 1-ci bəndi iştirakçı dövlətlərdən Konvensiyanın həyata keçirilməsini təmin etmək və müvafiq fəaliyyətlərə yardım etmək üçün bir və ya bir neçə əlaqələndirici mərkəz və/yaxud koordinasiya mexanizmləri yaratmağı tələb edir. Komitə iştirakçı dövlətlərin əlaqələndirici mərkəzlərinə və/yaxud koordinasiya mexanizmlərinə əlil təşkilatlarının nümayəndələrini Konvensiyaya dair məsləhətləşmə proseslərinə daxil etməyi və həmin təşkilatlarla qarşılıqlı fəaliyyət prosedurlarını və əlaqələri müəyyən etməyi tövsiyə edir.

36. 33-cü maddənin 2-ci bəndinə uyğun olaraq, Komitə monitorinq prosesinin bütün mərhələlərində müstəqil monitorinq strukturlarının, o cümlədən milli insan hüquqları institutlarının yaradılmasının, saxlanmasının və möhkəmləndirilməsinin vacibliyini tanımışdır.[15] Bu institutlar Konvensiyanın monitorinq prosesində, milli səviyyədə əməletmənin təşviqində və milli maraqlı tərəflərin, o cümlədən dövlət institutlarının və vətəndaş cəmiyyətinin əlaqələndirilmiş fəaliyyətlərinin həyata keçirilməsinə dəstəyin göstərilməsində mühüm rol oynayır.

37. 33-cü maddənin 3-cü bəndi iştirakçı dövlətlərin vətəndaş cəmiyyətinin cəlb olunmasını və Konvensiyaya uyğun olaraq yaradılmış müstəqil monitorinq strukturunda iştirak edə bilməsini təmin etmək öhdəliyini vurğulayır. Vətəndaş cəmiyyətinin cəlb olunması prosesinə əlilliyi olan şəxslər onları təmsil edən təşkilatlar vasitəsilə daxil edilməlidir.

[14] A/HRC/31/62, 1-3-cü bəndlər.

[15] CRPD/C/GBR/CO/1, 7 və 37-ci bəndlər; CRPD/C/BIH/CO/1, 58-ci bənd; CRPD/C/ARE/CO/1, 61-ci bənd; və CRPD/C/SRB/CO/1, 67-ci bənd.

38. İştirakçı dövlətlər müstəqil monitorinq strukturlarının əlil təşkilatlarının bu cür çərçivələrdə və proseslərdə rəsmi mexanizmlər vasitəsilə fəal cəlb olunmasına imkan yaratmasını, asanlaşdırmasını və təmin etməsini, eyni zamanda onların fikirlərinin nəzərə alınmasını və hazırlanmış hesabat və təhlillərində qeyd olunmasını təmin etməsi üçün tədbirlər görməlidir. Əlil təşkilatlarının müstəqil monitorinq strukturlarına və onların fəaliyyətinə qoşulması bir neçə formada baş verə bilər. Məsələn, müstəqil monitorinq strukturlarının idarə heyətində və ya məşvərətçi orqanlarında onlara yer verilə bilər.

39. 33-cü maddənin 3-cü bəndində nəzərdə tutulur ki, iştirakçı dövlətlər vətəndaş cəmiyyətinin, xüsusən əlil təşkilatlarının müstəqil monitorinq strukturlarının proseslərində səmərəli iştirakını təmin etmək üçün onların potensialının gücləndirilməsini dəstəkləməli və maliyyələşdirməlidir. Əlil təşkilatları müstəqil monitorinq strukturlarında iştirak etmək və öz üzvləri üçün ağlabatan uyğunlaşdırma və əlçatanlıqla bağlı tələblərin qarşılanmasını təmin etmək üçün müstəqil və özləri tərəfindən idarə olunan maliyyələşmə vasitəsilə zəruri resurslara malik olmalı, o cümlədən dəstəklə təmin edilməlidir. 33-cü maddənin 3-cü bəndi ilə əlaqədar əlil təşkilatlarının dəstəklənməsi və maliyyələşdirilməsi iştirakçı dövlətlərin Konvensiyanın 4-cü maddəsinin 3-cü bəndindən irəli gələn öhdəliklərini tamamlayır və onları istisna etmir.

40. Həm Konvensiya, həm də onun icrasına yönələn müvafiq strategiyalar tərcümə olunmalı və geniş spektrli sağlamlıq pozuntularını təmsil edən şəxslər üçün əlçatan və müyəssər olmalıdır. İştirakçı dövlətlər əlilliyi olan şəxsləri onların qərar qəbulu prosesində məsələləri anlamasına və qiymətləndirməsinə, əhəmiyyətli töhfələr verməsinə imkan verən məlumatlara çıxış imkanı ilə təmin etməlidir.

41. 33-cü maddənin 3-cü bəndini yerinə yetirmək üçün iştirakçı dövlətlər əlil təşkilatlarının Hökumət strukturundakı əlaqələndirici mərkəzlərə və/yaxud koordinasiya mexanizminə asan çıxış imkanı əldə etməsini təmin etməlidir.

## III. İştirakçı dövlətlərin öhdəlikləri

42. Komitə öz yekun qeydlərində iştirakçı dövlətlərə əlilliyi olan şəxsləri onları təmsil edən təşkilatlar, o cümlən əlilliyi olan qadınları və uşaqları təmsil edən təşkilatlar vasitəsilə, Konvensiyanın icrasına yönələn qanun və siyasətlərin hazırlanması və icrasına, eləcə də digər qərar qəbulu proseslərinə fəal şəkildə cəlb etmək və onlarla vaxtında və sıx məsləhətləşmək öhdəliyini xatırlatmışdır.

43. İştirakçı dövlətlər məsləhətləşmə proseslərinin şəffaflığını, zəruri və əlçatan məlumatların təqdim edilməsini və əlilliyi olan şəxslərin erkən və davamlı şəkildə cəlb edilməsini təmin etmək öhdəliyi daşıyır. İştirakçı dövlətlər əlil təşkilatlarını məlumatlardan məhrum etməməli və ya məsləhətləşmələrdə və qərar qəbulu proseslərində onların fikirlərini sərbəst şəkildə ifadə etmələrinin qarşısını almamalı və ya şərt qoymamalıdır. Buraya qanunvericilikdə nəzərdə tutulmalı və qeydiyyata alınmış birlikləri bərabər əsaslarla qorumalı olan birləşmə azadlığı hüququna uyğun olaraq, həm qeydiyyata alınmış, həm də qeydiyyatsız təşkilatlar daxildir.[16]

44. İştirakçı dövlətlər hər hansı əlil təşkilatının qeydiyyata alınmasını onun geniş məsləhətləşmə proseslərində iştirakı üçün ilkin şərt kimi tələb etməməlidir. Bununla belə, onlar ödənişsiz və əlçatan qeydiyyat sistemlərinin təmin edilməsi və əlil təşkilatlarının qeydiyyatının asanlaşdırılması yolu ilə, bu cür təşkilatların qeydiyyatdan keçərək, 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndi çərçivəsində iştirak etmək hüquqlarını həyata keçirə bilməsini təmin etməlidir.[17]

45. İştirakçı dövlətlər dövlət qərarlarının qəbulu və məsləhətləşmə prosesi ilə əlaqəli bütün mexanizm və prosedurların əlilliyi olan şəxslər üçün əlçatanlığını təmin etməlidir. İştirakçı dövlətlər əlilliyi olan şəxsləri, o cümlədən autizmli şəxsləri digərləri ilə bərabər əsaslarla fiziki mühitə, o cümlədən binalar, nəqliyyat, təhsil, öz dilində informasiya və kommunikasiyalara, o cümlədən yeni informasiya texnologiyaları və sistemlərinə, dövlət orqanlarının veb-saytlarına və həm şəhər, həm də kənd ərazilərində əhali üçün açıq olan və ya təmin edilən digər obyekt və

[16] A/HRC/31/62, 45-ci bənd; və A/HRC/20/27, 56-cı bənd.
[17] A/HRC/31/62, 40-cı bənd.

xidmətlərə çıxış imkanı ilə təmin etmək üçün adekvat tədbirlər görməlidir. İştirakçı dövlətlər, həmçinin, məsləhətləşmə proseslərinin əlçatan olmasını (məsələn, işarə dili tərcüməçiləri, Brayl əlifbası ilə tərtib olunan və asan oxunan materiallar təmin etməklə) təmin etməli və 11, 12 və 50-ci bəndlərdə göstərildiyi kimi, bütün əlilliyi olan şəxslərin təmsilçilərinin məsləhətləşmə proseslərində iştirakını təmin etmək üçün zərurət olduqda və tələb olunduqda dəstək, maliyyələşmə və ağlabatan uyğunlaşdırma təmin etməlidir[18].

46. Hissi və əqli pozuntuları olan əlilliyi olan şəxslərin təşkilatları, o cümlədən özünütəşviqat təşkilatları və psixososial əlillikləri olan şəxslərin təşkilatları ictimai müzakirələr zamanı görüş köməkçiləri və yardımçı şəxslərlə, əlçatan formatlarda məlumatlarla (məsələn, sadə dil, asan oxunan mətn, alternativ və gücləndirici kommunikasiya sistemləri və piktoqramlar), işarə dili tərcüməçiləri, eşitmə və görmə qabiliyyətini itirmiş şəxslər üçün tərcüməçi-bələdçilər və subtitrlərlə təmin edilməlidir.[19] İştirakçı dövlətlər həmçinin, əlil təşkilatlarının nümayəndələri üçün məsləhətləşmə proseslərinə dair xərclərin, o cümlədən görüşlərdə və texniki brifinqlərdə iştirak zamanı meydana çıxan nəqliyyat və digər xərclərin qarşılanması üçün resurslar ayırmalıdır.

47. Əlil təşkilatları ilə məsləhətləşmələr şəffaflığa, qarşılıqlı hörmətə, əhəmiyyətli dialoqa, eləcə də müxtəlif əlillikləri olan şəxsləri nəzərə alan prosedurlarla bağlı ümumi razılaşmanın əldə olunmasından ibarət səmimi niyyətə söykənməlidir. Bu cür proseslər çox zaman "könüllülər"in işindən asılı olan əlil təşkilatlarının xarakterini nəzərə alaraq, ağlabatan və real vaxt çərçivələri nəzərdə tutmalıdır. İştirakçı dövlətlər əlil təşkilatlarını fəal şəkildə cəlb edərək, öz iştirak və məsləhətləşmə mexanizmlərinin fəaliyyətinə dair vaxtaşırı qiymətləndirmələr aparmalıdır.[20]

48. Əlilliyi olan şəxslərin fikirlərinə onları təmsil edən təşkilatlar vasitəsilə lazımi diqqət yetirilməlidir. İştirakçı dövlətlər onların sadəcə formal tədbir və ya simvolik məsləhətləşmə yanaşması olaraq dinlənilməməsini təmin

[18] "Bərabərlik və ayrı-seçkiliyə yol verməmə haqqında" 6 (2018) nömrəli Ümumi Şərh, 23 və 40-cı bəndlər
[19] A/HRC/31/62, 75-77-ci bəndlər.
[20] Eyni mənbə, 78-80-ci bəndlər.

etməlidir.[21] İştirakçı dövlətlər bu cür məsləhətləşmələrin nəticələrini nəzərə almalı və onları qəbul edilmiş qərarlarda əks etdirməli[22], bu məqsədlə iştirakçıları prosesin nəticəsi barədə lazımi qaydada məlumatlandırmalıdır.[23]

49. İştirakçı dövlətlər dövlət qərarını əsaslandırarkən əlil təşkilatlarının mövqelərini birbaşa nəzərə almaq üçün bu cür təşkilatlarla sıx və səmərəli məsləhətləşmə şəraitində və onları fəal şəkildə cəlb etməklə Hökumətin müxtəlif qollarında və səviyyələrində adekvat və şəffaf mexanizmlər və prosedurlar yaratmalıdır.

50. İştirakçı dövlətlər bütün əlilliyi olan şəxsləri, o cümlədən qadınları, yaşlıları, uşaqları, yüksək səviyyədə yardıma ehtiyacı olanları,[24] minalardan zərər çəkmiş şəxsləri, qaçqınları, miqrantları, sığınacaq axtaran şəxsləri, məcburi köçkünləri, sənədsiz və vətəndaşlığı olmayan şəxsləri, faktiki və ya düşünülən psixososial pozuntuları olan şəxsləri, əqli əlillikləri olan şəxsləri, neyro-fərqli şəxsləri, o cümlədən autizm və ya demensiyalı şəxsləri, albinizmli şəxsləri, geridönməz fiziki pozuntuları, xroniki ağrısı olan şəxsləri, cüzam xəstələrini, görmə pozuntuları olan şəxsləri, eşitmə qabiliyyətini itirmiş şəxsləri, eşitmə və görmə qabiliyyətini itirmiş və başqa formada eşitmə pozuntusu olan şəxsləri və İİV/QİÇS-lə yaşayan şəxsləri və digərlərini təmsil edən əlil təşkilatları ilə sıx məsləhətləşməni və onların fəal cəlb olunmasını təmin etməlidir. İştirakçı dövlətlərin əlil təşkilatlarını cəlb etmək öhdəliyi həm də spesifik cinsi oriyentasiyası və/yaxud gender kimliyi olan əlilləri, interseks əlilləri və aborigen xalqlara, milli, etnik, dini və ya linqvistik azlıqlara mənsub olan əlilləri və kənd ərazilərində yaşayan əlilləri əhatə edir.

51. İştirakçı dövlətlər üçüncü şəxslər, məsələn, xidmət icraçıları tərəfindən əlilliyi olan şəxslərin Konvensiyaya dair qərar qəbulu proseslərində onlarla sıx məsləhətləşmənin aparılması və onların fəal cəlb olunması hüququna birbaşa və ya dolayı şəkildə müdaxilə edərək ayrı-seçkiliyə yol verən və digər davranışları qadağan etməlidir.

[21] Uşaq Hüquqları üzrə Komitənin 12 nömrəli Şərhi, 132-ci bənd.
[22] CRPD/C/COL/CO/1, bənd 11 (a).
[23] Uşaq Hüquqları üzrə Komitənin 12 nömrəli Şərhi, 45-ci bənd.
[24] CRPD/C/ARM/CO/1, bənd 6 (a).

52. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin onlarla məsləhətləşmənin aparılması hüququndan istifadə edə bilməsi və digərləri tərəfindən iştirakının qarşısının alınmamasını təmin etmək üçün qanun və siyasətlər qəbul etməli və həyata keçirməlidir. Bu tədbirlərə ailə üzvləri, xidmət icraçıları və dövlət qulluqçuları arasında əlilliyi olan şəxslərin ictimai-siyasi həyatda iştirak hüquqları barədə maarifləndirmənin aparılması daxildir. İştirakçı dövlətlər əlil təşkilatlarının nümayəndələri və ya digər maraqlı tərəflərin maraq toqquşmalarını ifşa etmək və onların əlilliyi olan şəxslərin müstəqilliyinə, iradəsinə və seçimlərinə mənfi təsirlərinin qarşısını almaq üçün mexanizmlər qəbul etməlidir.

53. İştirakçı dövlətlər 4-cü maddənin 3-cü bəndindən irəli gələn öhdəliklərini yerinə yetirmək məqsədilə, əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə onlara dair məsələlərlə bağlı qərar qəbulu proseslərində və qanun və siyasətlərin, o cümlədən əlilliklə bağlı qanun, siyasət, strategiya və fəaliyyət planlarının hazırlanmasında tam və bərabər səviyyəli iştirakını təmin etmək üçün normativ-hüquqi çərçivə və prosedurlar qəbul etməlidir. İştirakçı dövlətlər əlil təşkilatlarına məsələn, daimi komitələrə və/yaxud müvəqqəti işçi qruplara üzvlərinin namizədliyini irəli sürmək hüququ verməklə, onlara bu cür orqanlarda yer vermək üçün müddəalar qəbul etməlidir.

54. İştirakçı dövlətlər rəsmi məsləhətləşmə prosedurları yaratmalı və tənzimləməlidir. Buraya sorğuların, görüşlərin və digər metodların planlaşdırılması, adekvat icra qrafiklərinin təşkili, əlil təşkilatlarının erkən mərhələlərdən cəlb olunması və hər proses üçün müvafiq məlumatların qabaqcadan, vaxtında və geniş şəkildə yayılması daxildir. İştirakçı dövlətlər əlil təşkilatları ilə məsləhətləşmə şəraitində, məsləhətləşmələr üçün əlçatan onlayn alətlər yaratmalı və/yaxud əlçatan rəqəmsal formalarda alternativ məsləhətləşmə üsulları təmin etməlidir. Heç kəsin məsləhətləşmə prosesindən kənarda qalmamasını təmin etmək üçün iştirakçı dövlətlər iştiraka davamlı nəzarət, kifayət qədər təmsil olunmayan qrupların müəyyən edilməsi, əlçatanlıq və ağlabatan uyğunlaşdırma tələblərinin yerinə yetirilməsinin təmin edilməsi funksiyasını icra edən şəxslər təyin etməlidir. Analoji olaraq, onlar başqa vasitələrlə yanaşı, ağlabatan uyğunlaşdırma və əlçatanlıq tələbləri barədə məlumat təmin etmək yolu ilə,

bütün bu cür qrupları təmsil edən əlil təşkilatlarının cəlb olunmasını və onlarla məsləhətləşmə aparılmasını təmin etməlidir.

55. İştirakçı dövlətlər siyasətlərin hazırlanması üçün hazırlıq xarakterli tədqiqatlar və təhlillər apararkən əlil təşkilatları ilə məsləhətləşməni və onlarla əməkdaşlığı təmin etməlidir. Siyasətlərlə bağlı təkliflərə baxmaq üçün nəzərdə tutulan ictimai forumlar əlilliyi olan şəxslərin iştirakı üçün tam şəkildə əlçatan olmalıdır.

56. İştirakçı dövlətlər müstəqil monitorinq strukturları vasitəsilə monitorinq proseslərində əlil təşkilatlarının iştirakının aydın prosedurlara, məqsədəuyğun vaxt çərçivələrinə əsaslanmasını və müvafiq məlumatların öncədən yayılmasını təmin etməlidir. Monitorinq və qiymətləndirmə sistemləri bütün siyasət və proqramlarda əlil təşkilatları ilə iş səviyyəsini araşdırmalı və bu cür şəxslərin fikirlərinə prioritet verilməsini təmin etməlidir. İştirakçı dövlətlər xidmətlərin göstərilməsi ilə bağlı əsas vəzifəsini yerinə yetirmək üçün xidmət istifadəçilərinin özlərinin rəylərini toplamaq məqsədilə, əlil təşkilatları ilə tərəfdaşlıq imkanlarını araşdırmalıdır.[25]

57. İştirakçı dövlətlər optimal olaraq, əlilliyi olan şəxslərin bütün kateqoriyalarını əhatə edən və onların müxtəlifliyinə və bərabərliyinə hörmət edən əlil təşkilatlarının vahid, birləşmiş və müxtəlifliyi özündə əks etdirən koalisiyasının yaradılmasını həvəsləndirməli və onun milli səviyyədə Konvensiyanın monitorinqinə cəlb olunmasını və iştirak etməsini təmin etməlidir. Vətəndaş cəmiyyəti təşkilatları ümumən əlil təşkilatlarını təmsil edə və ya onların yerini tuta bilməz. [26]

58. Əlilliyi olan şəxslərin maraqlarının özləri tərəfindən qorunmasının və hüquq və imkanlarının artırılmasının təşviqi onların ictimai məsələlərdə iştirakının əsas komponentləridir; bunun üçün texniki, inzibati və kommunikasiya bacarıqlarının inkişafı, onların hüquqları, qanunvericilik və siyasətlərin hazırlanmasına dair məlumat və alətlərə çıxışın asanlaşdırılması tələb olunur.

59. Əlilliyi olan şəxslərin inklüziv təhsilə çıxış baxımından üzləşdiyi əngəllər onların imkanlarını azaldır və dövlət qərarlarının qəbulunda iştirak

[25] A/71/314, 65-66-cı bəndlər.
[26] CRPD/C/ESP/CO/1, 6-cı bənd; və CRPD/C/NZL/CO/1, 4-cü bənd.

qabiliyyətlərinə xələl gətirir. Bu isə öz növbəsində, onların təşkilatlarının institusional potensiallarına təsir göstərə bilər. İctimai nəqliyyata çıxışla bağlı əngəllər, ağlabatan uyğunlaşdırmaların edilməməsi, əlilliyi olan şəxslərin gəlir səviyyəsinin aşağı və qeyri-kafi olması və onlar arasında işsizlik də bu cür şəxslərin vətəndaş cəmiyyətinin fəaliyyətlərində iştirak etmək qabiliyyətini məhdudlaşdırır.

60. İştirakçı dövlətlər başqa vasitələrlə yanaşı müstəqil maliyyələşdirmə vasitəsilə, əlilliyin insan hüquqlarına əsaslanan modeli üzrə təlim və potensialın gücləndirilməsi tədbirlərini təmin etməklə, əlil təşkilatlarının siyasətlərin hazırlanmasının bütün mərhələlərində iştirak etmək potensialını gücləndirməlidir. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin cəmiyyətdə öz tam və səmərəli iştirakını müstəqil şəkildə təşviq etməsi üçün tələb olunan səriştə, bilik və bacarıqların inkişafında və insan hüquqlarına hörmət, qanunun aliliyi, şəffaflıq, hesabatlılıq, plüralizm və iştirak kimi daha güclü demokratik idarəçilik prinsiplərinin inkişaf etdirilməsində əlilliyi olan şəxslərə və onları təmsil edən təşkilatlara dəstək göstərməlidir. Bundan əlavə, iştirakçı dövlətlər maliyyələşmə əldə etməyin və dəstək mənbələrini şaxələndirməyin yolları barədə tövsiyələr təmin etməlidir.[27]

61. İştirakçı dövlətlər əlil təşkilatlarının asanlıqla və sərbəst surətdə qeydiyyatdan keçməsini, milli və beynəlxalq donorlardan, o cümlədən fiziki şəxslərdən, özəl şirkətlərdən, bütün dövlət və özəl fondlardan, vətəndaş cəmiyyəti təşkilatlarından və dövlət, regional və beynəlxalq təşkilatlardan maliyyə qəbul etmək üçün müraciət etmək və onları əldə etmək imkanını təmin etməlidir.[28] Komitə iştirakçı dövlətlərə başqa vasitələrlə yanaşı aşağıdakı yollarla, məsləhətləşmə üçün maliyyə vəsaitlərinin ayrılması üçün meyarlar qəbul etməyi tövsiyə edir:

(a) Üçüncü tərəflərin vasitəçiliyindən istifadə etmədən, maliyyə vəsaitlərini birbaşa əlil təşkilatlarına vermək;

(b) Əlil təşkilatlarına ilk növbədə əlilliyi olan şəxslərin hüquqlarının təşviqinə yönələn resursların təmin edilməsini prioritetləşdirmək;

[27] A/HRC/31/62, 47-50-ci bəndlər.
[28] A/HRC/20/27, 67-68-ci bəndlər.

(c) Əlilliyi olan qadınların və uşaqların təşkilatlarının qanun və siyasətlərin hazırlanması, tərtibi və icrası prosesində və monitorinq çərçivəsində tam və səmərəli iştirakına şərait yaratmaq üçün bu cür təşkilatlar üçün xüsusi vəsaitlər ayırmaq;[29]

(d) Əlil təşkilatları arasında maliyyə vəsaitlərini, o cümlədən layihə əsaslı maliyyələşdirmə ilə məhdudlaşmaq əvəzinə, dayanıqlı əsas institusional maliyyələşdirməni bərabər əsaslarla bölüşdürmək;

(e) Qəbul edilmiş vəsaitlərə baxmayaraq öz təşviqat gündəliklərinin müəyyənləşdirilməsində əlil təşkilatlarının müstəqilliyini təmin etmək;

(f) Əlil təşkilatlarının fəaliyyəti üçün ayrılan maliyyələşdirmə ilə bu təşkilatların icra etdiyi layihələr üçün ayrılan maliyyələşdirmə arasında fərqləndirmə aparmaq;

(g) Maliyyələşdirmə imkanlarını bütün əlil təşkilatları üçün, o cümlədən özünütəşviqat təşkilatları, eləcə də üzvlərini hüquq qabiliyyətindən məhrum edən və təşkilatlarının qeydiyyatına imkan verməyən qanunlar səbəbindən hüquqi status əldə etməmiş təşkilatlar üçün əlçatan etmək;

(h) Maliyyələşdirmə üçün müraciət proseslərini əlçatan formatlarda qəbul etmək və icra etmək.

62. İştirakçı dövlətlər əlil təşkilatlarının öz fəaliyyətlərini həyata keçirmək üçün milli vəsaitlərə çıxışının olmasını təmin etməlidir. Çünki yalnız xarici mənbələrdən asılı olduqda, bu, onların dayanıqlı təşkilati struktur qurmaq qabiliyyətini məhdudlaşdıracaqdır[30]. Üzvlük haqları ilə yanaşı, dövlət və özəl resurslardan dəstək alan əlil təşkilatları bütün formalarda siyasi və inzibati qərarların qəbulunda əlilliyi olan şəxslərin iştirakını təmin etmək, onları dəstəklə təmin etmək və fərdi və müxtəlif qrup yönümlü sosial fəaliyyətlər yaratmaq və həyata keçirmək üçün daha yaxşı imkanlara malik olacaqdır.

63. İştirakçı dövlətlər milli və beynəlxalq səviyyələrdə cavabdeh rəsmi hüquqi mexanizm, məsələn, məqsədli fondlar yaratmaqla, əlil təşkilatları üçün adekvat və kafi maliyyələşdirməyə təminat verməlidir.

[29] CRPD/C/1/Rev.1, qoşma.
[30] A/71/314, 65-66-cı bəndlər.

64. İştirakçı dövlətlər bütün növ əlilliklərə malik şəxsləri təmsil edən əlil təşkilatlarının yaradılması və gücləndirilməsi üçün nəzərdə tutulan dövlət resurslarını artırmalıdır. Onlar, həmçinin, vergi güzəştləri və miras vergisindən azadolma, habelə milli lotereyadan əldə olunmuş gəlirlər daxil olmaqla, milli maliyyə imkanlarına çıxışını təmin etməlidir.[31] İştirakçı dövlətlər insan hüquqları sahəsində fəaliyyət göstərən digər qeyri-hökumət təşkilatları ilə bərabər əsaslarla əlil təşkilatlarının da regional səviyyə də daxil olmaqla beynəlxalq əməkdaşlıq və inkişaf yardımı çərçivəsində xarici maliyyələşməyə çıxış imkanını artırmalı və asanlaşdırmalıdır.

65. İştirakçı dövlətlər 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndindən irəli gələn öhdəliklərin yerinə yetirilməməsinə görə təsirli cəza tədbirlərini təmin edən güclü mexanizm və prosedurlar hazırlamalıdır. Öhdəliklərin yerinə yetirilməsinin monitorinqi araşdırmalara başlamaq və cavabdeh şəxsləri məsul tutmaq səlahiyyətinə malik olan müstəqil qurumlar, məsələn, ombudsman aparatı və ya parlament komitəsi tərəfindən aparılmalıdır. Bununla yanaşı, əlil təşkilatları 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinə əməl etməyən qurumlara qarşı hüquqi tədbirlər görmək imkanına malik olmalıdır.[32] Belə mexanizmlər qərar qəbulunun bütün səviyyələrində əlil təşkilatları ilə məsləhətləşmə və onların cəlb olunmasını tənzimləyən hüquqi çərçivələr və ayrı-seçkiliklə mübarizə sahəsində milli qanunvericiliyə daxil edilməlidir.[33]

66. İştirakçı dövlətlər əlilliyi olan şəxslərin iştirak hüququna əməletmənin icrasını təmin etmək üçün səmərəli hüquqi müdafiə vasitələrini, o cümlədən kollektiv xarakterli müdafiə vasitələrini və qrup iddialarını tanımalıdır. Dövlət orqanları əlilliyi olan şəxslərin hüquqlarına mənfi təsir edən vəziyyətlərdə əlilliyi olan şəxslərin ədalət mühakiməsinə çıxışının səmərəli şəkildə təmin edilməsinə əhəmiyyətli dərəcədə töhfə verə bilər.[34] Səmərəli hüquqi müdafiə vasitələrinə aşağıdakılar daxildir: (a) prosedurun dayandırılması; (b) əlil təşkilatları ilə məsləhətləşmə və onların cəlb olunmasını təmin etmək üçün prosedurun daha əvvəlki mərhələsinə qayıtmaq; (c) zəruri məsləhətləşmələr başlayanadək qərarın icrasını təxirə

---

[31] A/59/401, bənd 82 (l) və (t); və A/HRC/31/62, 51–54-cü bəndlər.
[32] A/71/314, 68-69-cu bəndlər.
[33] 6 nömrəli Ümumi Şərh, 72-ci bənd.
[34] Eyni mənbə, bənd 73 (h).

salmaq; (d) 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinə əməl edilmədiyi halda, qərarı qismən və ya tam ləğv etmək.

## IV. Konvensiyanın digər müddəaları ilə əlaqə

67. 3-cü maddədə Konvensiyanın şərhi və icrasını istiqamətləndirən bir qrup ümumi prinsiplər müəyyən edilir. Buraya daxil olan "tam və səmərəli iştirak və cəmiyyətə qoşulma" o deməkdir ki, əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə iştirakı bütün mətndə işlənir və bütün Konvensiyaya şamil olunur.[35]

68. İştirakçı dövlətlərin ümumi öhdəliklərin tərkib hissəsi kimi, 4-cü maddənin 3-cü maddəsi bütün Konvensiyaya şamil edilir və onda nəzərdə tutulan bütün öhdəliklərin icrasında əhəmiyyətlidir.

69. 4-cü maddənin 1, 2 və 5-ci bəndləri həmin maddənin 3-cü bəndinin icrasında son dərəcə böyük əhəmiyyət daşıyır. Çünki onlarda iştirakçı dövlətlərin heç bir məhdudiyyət və ya istisna olmadan federal dövlətlərin bütün hissələrinə şamil olunan, Konvensiyaya əməl etmək üçün zəruri strukturların və çərçivələrin yaradılması və tədbirlərin görülməsi ilə bağlı başlıca öhdəliklər yer alır.

70. 5-ci maddədə nəzərdə tutulan əlilliyi olan şəxslərin bərabərliyi və ayrı-seçkiliyə məruz qalmamasını təşviq edən siyasətlər 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinə uyğun olaraq qəbul edilməli və monitorinqi aparılmalıdır.[36] Cəmiyyətin geniş spektrini təmsil edən əlil təşkilatları ilə sıx məsləhətləşmə və onların fəal şəkildə cəlb edilməsi de-fakto və inklüziv bərabərliyi, o cümlədən pozitiv fəaliyyət tədbirlərini təşviq etmək üçün hüquqi çərçivələrin və istiqamətverici materialların qəbulunun və monitorinqinin uğurluluğu üçün vacib komponentlərdəndir.

71. Məsləhətləşmə prosedurları əlilliyi olan şəxsləri kənarda qoymamalı və ya mövcud sağlamlıq pozuntuları əsasında ayrı-seçkiliyə yol verməməlidir. Prosedurlar və müvafiq materiallar əlilliyi olan şəxsləri də əhatə etməli və

[35] BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın monitorinqi: Guidance for Human Rights Monitors, Professional Training Series No. 17 (New York and Geneva, 2010).
[36] 6 nömrəli Ümumi Şərh

onlar üçün əlçatan olmalı, məsləhətləşmə proseslərinin erkən mərhələlərindən etibarən iştirak üçün vaxt çərçivələri və texniki yardım nəzərdə tutulmalıdır. Bütün dialoq və məsləhətləşmə proseslərində ağlabatan uyğunlaşdırma təmin edilməli, əlil təşkilatları ilə sıx məsləhətləşmə və onların fəal cəlb olunması yolu ilə ağlabatan uyğunlaşdırmaya dair qanun və siyasətlər hazırlanmalıdır.

72. Konvensiyanın 6-cı maddəsi əlilliyi olan qadın və qızların tam inkişafını, irəliləyişini və hüquq və imkanlarının artırılmasını təmin etmək üçün tədbirlərin görülməsini tələb edir. İştirakçı dövlətlər əlilliyi olan qadın və qızların öz təşkilatları vasitəsilə, əlilliyi olan kişilərlə bərabər əsasda ictimai həyatda iştirakına imkan yaradan mexanizm kimi onların təşkilatlarının yaradılmasını həvəsləndirməli və asanlaşdırmalıdır. İştirakçı dövlətlər əlilliyi olan qadınların özlərini təmsil etmək və təşkilatlanmaq, 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinə uyğun olaraq sıx məsləhətləşmələrdə özlərinin səmərəli iştirakına şərait yaratmaq hüququnu tanımalıdır. Əlilliyi olan qadın və qızlar bütün icra orqanları və qollarına və müstəqil monitorinq strukturuna bərabər əsaslarla daxil edilməlidir. Bütün məsləhətləşmə orqanları, mexanizm və prosedurları əlilliyi xüsusi nəzərə almalı, əhatə etməli və gender bərabərliyini təmin etməlidir.

73. Əlilliyi olan qadınlar əlil təşkilatlarının rəhbərliyində əlilliyi olan kişilərlə bərabər əsasda iştirak etməli və bərabər təmsilçilik, qadın komitələri, səlahiyyətləndirmə proqramları və s. vasitəsilə çətir təşkilatlar çərçivəsində onlara yer və səlahiyyət verilməlidir. İştirakçı dövlətlər əlilliyi olan qadınların, o cümlədən hər hansı formada himayəçilik subyekti olan və ya xüsusi müəssisələrdə yaşayan qadınların iştirakını onların həyatına təsir edən bütün tədbirlərin hazırlanması, icrası və monitorinqində ilkin şərt kimi təmin etməlidir. Əlilliyi olan qadınlar müstəsna olaraq və ya qeyri-mütənasib şəkildə onlara təsir edən məsələlər və ümumilikdə qadın hüquqları və qadın bərabərliyinə dair siyasətlər, məsələn, cinsi və reproduktiv sağlamlıq və hüquqlar, eləcə də qadınlara qarşı gender əsaslı zorakılığın bütün formaları ilə bağlı qərar qəbulu proseslərində iştirak edə bilməlidir.

74. 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndi əlilliyi olan uşaqların 7-ci maddədə bəyan olunan hüquqlarının icrasında fundamental əhəmiyyət daşıyır. İştirakçı dövlətlər əlilliyi olan uşaqların onları təmsil edən

təşkilatlar vasitəsilə, məktəbdə və icmada, yerli, milli və beynəlxalq səviyyələrdə onların həyatlarına təsir edən müvafiq qanun, siyasət, xidmət və proqramların planlaşdırılması, icrası, monitorinq və qiymətləndirilməsinin bütün aspektlərində iştirakını və fəal cəlb olunmasını təmin etmək üçün addımlar atmalıdır. İştirakın məqsədi əlilliyi olan uşaqların hüquq və imkanlarının artırılması və öhdəlik daşıyıcıları tərəfindən onların öz icmalarında və cəmiyyətdə fəal rol oynaya biləcək hüquq sahibləri olmasının qəbul edilməsidir. Bu, onların dinlənilmək hüquqlarının tanınmasından onların öz hüquqlarının realizə edilməsində fəal iştirakınadək müxtəlif səviyyələrdə baş verir.[37]

75. İştirakçı dövlətlər əlilliyi olan uşaqlara öz qərarlarının qəbulunda dəstək göstərməli, bunun üçün digər vasitələrlə yanaşı, uşaq yönümlü məlumatlar və özünütəşviqata adekvat dəstək daxil olmaqla onların öz baxışlarını ifadə etməsini asanlaşdırmaq üçün zəruri olan hər hansı növ kommunikasiya ilə təchiz etməli və onlardan istifadəsinə şərait yaratmalı,[38] bu cür uşaqlarla birgə və ya onlar üçün işləyən bütün mütəxəssislər üçün adekvat təlim təmin etməlidir.[39] İştirakçı dövlətlər həmçinin əlillik növünə və yaşa uyğun yardım və prosedurlar, əlilliyi olan uşaqlar üçün dəstək təmin etməlidir. Onların təşkilatlarının iştirakı onlara dair konkret məsələlərlə bağlı məsləhətləşmələrin ayrılmaz hissəsi hesab edilməli və onların fikirlərinə onların yaş və yetkinlik səviyyəsinə uyğun olaraq lazımi diqqət yetirilməlidir.

76. 4-cü maddənin 3-cü bəndi məlumatlılığın artırılmasında xüsusi əhəmiyyət daşıyır (8-ci maddə). Komitə iştirakçı dövlətlərə əlil təşkilatlarının iştirakı ilə, bütün növ əlilliklərə malik olan şəxsləri hüquq sahibləri kimi təsvir edən sistemli maarifləndirmə proqramları, o cümlədən ictimai radio və televiziya verilişləri vasitəsilə media kampaniyaları həyata keçirməklə bağlı tövsiyələrini xatırladır.[40] Bütün dövlət sektoru rəsmilərinə yönələn maarifləndirmə kampaniyaları və təlim proqramları Konvensiyanın

---

[37] BMT-nin Uşaq Fondu, "Yetkinlik yaşına çatmayanların iştirakının monitorinq nəticələri üzrə konseptual çərçivə" (Mart, 2018). Burada: www.unicef.org/adolescence/files/Conceptual_Framework_for_Measuring_Outcomes_of_Adolescent_Participation_March_2018.pdf.
[38] Bax: Uşaq Hüquqları üzrə Komitənin 12 nömrəli Şərhi, 21-ci bənd.
[39] Eyni mənbə, 34-cü bənd.
[40] CRPD/C/MDA/CO/1, 19-cu bənd; CRPD/C/AZE/CO/1, 21-ci bənd; və CRPD/C/TUN/CO/1, 21-ci bənd.

prinsipləri ilə uyğunluq təşkil etməli, cəmiyyətdə kök salmış gender və əlillik stereotiplərini aradan qaldırmaq üçün əlilliyin insan hüquqlarına əsaslanan modelinə əsaslanmalıdır.

77. Əlil təşkilatlarının Konvensiyanın məsləhətləşmə və monitorinq proseslərində adekvat şəkildə iştirak edə bilməsi üçün prosedurlara, mexanizmlərə, informasiya və kommunikasiya vasitələrinə, bina və obyektlərə, o cümlədən ağlabatan uyğunlaşmalara optimal çıxışın olması (9-cu maddə) vacibdir. İştirakçı dövlətlər əlil təşkilatları ilə sıx məsləhətləşmə və onların fəal şəkildə cəlb olunmasını təmin etmək üçün məsələn, informasiya və kommunikasiya texnologiyaları [41] sahəsində beynəlxalq əlçatanlıq standartları və universal dizayn prosesini hazırlamalı, qəbul etməli və həyata keçirməlidir.[42]

78. Riskli vəziyyətlərdə və fövqəladə humanitar vəziyyətlərdə (11-ci maddə) iştirakçı dövlətlər və humanitar təşkilatlar əlil təşkilatları, o cümlədən bütün yaş qruplarına daxil olan əlil qadınları, kişiləri və uşaqları bütün səviyyələrdə təmsil edən təşkilatların fəal iştirakını və onlarla əlaqələndirmə və əhəmiyyətli məsləhətləşməni təmin etməlidir. Bunun üçün 4-cü maddənin 3-cü bəndinə uyğun olaraq, fövqəladə vəziyyətlərlə əlaqəli qanun və siyasətlərin hazırlanması, icrası və monitorinqində əlil təşkilatlarının fəal iştirakı və yardımların paylanması üçün prioritetlərin müəyyən edilməsi tələb olunur. İştirakçı dövlətlər əlilliyi olan məcburi köçkünlərin və ya qaçqınların təşkilatlarının yaradılmasını təşviq etməlidir. Bu təşkilatlara onların hər hansı risk vəziyyətlərində, o cümlədən silahlı münaqişələr zamanı malik olduğu hüquqlarını təşviq etmək imkanı yaradılmalıdır.

79. Qanun qarşısında bərabərlik (12-ci maddə) əlilliyi olan bütün şəxslərin öz hüquq qabiliyyətini həyata keçirmək və onlara təsir edən qərarları seçmək və nəzarət etmək baxımından bərabər hüquqlara malik olmaq hüququnu təmin edir. Qanun qarşısında bərabərlik Konvensiyanın icrasına yönələn qanun və siyasətlərin hazırlanması və icrasında əlilliyi olan şəxslərlə birbaşa və effektiv məsləhətləşmələr və onların cəlb olunması üçün ilkin şərtdir. Komitə tövsiyə edir ki, 12-ci maddənin icra edilməməsi heç bir halda 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinin inklüziv

[41] "Əlçatanlıq haqqında" 2 (2014) nömrəli Ümumi Şərh, 5–7 və 30-cu bəndlər.
[42] Eyni mənbə, 16, 25 və 48-ci bəndlər.

icrasını istisna etməməlidir. Hüquq qabiliyyətinin verilməsindən imtina əsasında iştirak qarşısındakı bu əngəli aradan qaldırmaq üçün qanun və siyasətlərə dəyişiklik edilməlidir.

80. Komitə "Qanun qarşısında bərabərlik haqqında" 1 (2014) nömrəli ümumi şərhini xatırladır. Həmin şərhdə Komitə qeyd edir ki, hüquq qabiliyyəti cəmiyyətdə və qərarvermə proseslərində tam və səmərəli iştirakdan yararlanmaq üçün həlledici əhəmiyyət daşıyır və əlilliyi olan bütün şəxslər, o cümlədən əqli əlillikləri olan şəxslər, autizmli şəxslər, faktiki və ya düşünülən psixososial pozuntuları olan şəxslər və əlilliyi olan uşaqların onları təmsil edən təşkilatlar vasitəsilə hüquq qabiliyyətinə təminat verilməlidir. İştirakçı dövlətlər şəxsin müstəqilliyinə, iradəsinə və seçimlərinə hörmət etməklə, siyasətlərin hazırlanması və məsləhətləşmələrdə iştiraka imkan yaratmaq üçün yardımla müşayiət olunan qərar qəbulu mexanizmlərinin mövcudluğunu təmin etməlidir.

81. Əlilliyi olan şəxslərin ədalət mühakiməsinə çıxış hüququ (13-cü maddə) əlilliyi olan şəxslərin bütövlükdə ədalət mühakiməsi sistemində digərləri ilə bərabər əsasda iştirak etmək hüququna malik olduğunu nəzərdə tutur. Bu iştirak bir çox formalarda baş verir və səmərəli idarəçiliyə töhfə verən demokratik sistem çərçivəsində məsələn, iddiaçı, zərərçəkmiş, müttəhim, hakim, münsif və vəkil funksiyalarını icra edən əlilliyi olan şəxsləri ehtiva edir.[43] Əlilliyi olan şəxslərlə onları təmsil edən təşkilatlar vasitəsilə sıx məsləhətləşmə bu şəxslərin ədalət mühakiməsi sistemində iştirakı ilə bağlı qanun, qayda, siyasət və proqramların qəbulu və/yaxud dəyişikliklərin edilməsinə yönələn bütün proseslərdə əhəmiyyət daşıyır.

82. Bütün formalarda istismar, zorakılıq və təhqirin (16-cı maddə) qarşısını almaq üçün iştirakçı dövlətlər əlilliyi olan şəxslərə xidmət etməsi nəzərdə tutulan bütün müəssisə və proqramlara müstəqil orqanlar tərəfindən səmərəli nəzarət edilməsini təmin etməlidir. Komitə müşahidə etmişdir ki, əlilliyi olan şəxslərə "xidmət edən" müəssisələrdə, məsələn, psixiatrik müəssisələrdə və/yaxud internat müəssisələrində əlilliyi olan şəxslərin hüquq pozuntuları baş verməkdə davam edir. 33-cü maddənin 3-cü bəndinə əsasən, bu o deməkdir ki, 16-cı maddənin 3-cü bəndinə uyğun

[43] *Beasley Avstraliyaya qarşı* (CRPD/C/15/D/11/2013), bənd 8.9; və *Lockrey Avstraliyaya qarşı* (CRPD/C/15/D/13/2013), bənd 8.9.

olaraq tapşırığın təyin olunduğu müstəqil monitorinq orqanının 33-cü maddənin 2-ci bəndində nəzərdə tutulan müstəqil monitorinq strukturu ilə üst-üstə düşüb-düşməməsindən asılı olmayaraq, vətəndaş cəmiyyəti, o cümlədən əlil təşkilatları bu müəssisə və xidmətlərin monitorinqində fəal iştirak etməlidir.

83. Komitə "Müstəqil yaşamaq və icmaya cəlb olunmaq haqqında" 5(2017) nömrəli ümumi şərhini xatırladaraq qeyd edir ki, müstəqil yaşamaq və icmaya cəlb olunmaq hüququnu (19-cu maddə) icra edərkən, bütün planların və strategiyaların qəbulu, davamlı nəzarət və monitorinq üçün əlilliyi olan şəxslərlə onları təmsil edən təşkilatlar vasitəsilə məsləhətləşmə və onların fəal cəlb olunması son dərəcə vacibdir. Qərar qəbulu prosesinin bütün səviyyələrində fəal iştirak və məsləhətləşməyə bütün əlilliyi olan şəxslər daxil olmalıdır. Əlilliyi olan şəxslər, o cümlədən müəssisə şəraitində yaşayanlar de-institutlaşma strategiyalarının planlaşdırılması, icrası və monitorinqinə və xüsusilə bu şəxslərə aid olan dəstək xidmətlərinin hazırlanmasına cəlb olunmalıdır.[44]

84. Əlil təşkilatlarının monitorinq prosesinə cəlb olunması və prosesdə tam iştirak edərək öz fikirlərini tam ifadə etməsi üçün məlumatlara çıxış imkanı (21-ci maddə) zəruridir. Bu cür təşkilatlar məlumatları əlçatan formatlarda, o cümlədən rəqəmsal formada və bütün növ əlilliklər üçün uyğun olan texnologiyalar vasitəsilə, vaxtında və heç bir əlavə xərclə qarşılaşmadan almalıdır. Buraya rəsmi təmaslarda əlilliyi olan şəxslərin seçimi əsasında işarə dilindən, asan oxunan mətn, sadə dil və Brayl əlifbasından, gücləndirici və alternativ kommunikasiya və bütün digər əlçatan kommunikasiya vasitələri, üsulları və formalarından istifadə daxildir. Hər hansı məsləhətləşmə keçirilməzdən kifayət qədər öncə, bütün müvafiq məlumatlar, o cümlədən məlumatlara söykənəm fikirlər üçün zəruri olan spesifik büdcə xarakterli, statistik və digər müvafiq məlumatlar təqdim edilməlidir.

85. İnklüziv təhsil hüququnu (24-cü maddə) təmin etmək üçün, Komitənin "İnklüziv təhsil haqqında" 4 (2016) nömrəli ümumi şərhinə uyğun olaraq, iştirakçı dövlətlər inklüziv təhsillə bağlı siyasətlərin və qanunların

[44] "Müstəqil yaşamaq və icmaya cəlb olunmaq haqqında" 5 (2017) nömrəli Ümumi Şərh, 71-ci bənd.

planlaşdırılması, icrası, monitorinqi və qiymətləndirilməsinin bütün aspektlərində əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə əlilliyi olan şəxslər, o cümlədən əlilliyi olan uşaqlarla məsləhətləşməli və onları fəal şəkildə cəlb etməlidir.[45] İnklüziv təhsil əlilliyi olan şəxslərin 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndində təsvir edilən iştirakı üçün son dərəcə vacibdir. Təhsil insanların tərəqqisinə şərait yaradır və cəmiyyət daxilində iştirak ehtimalını yüksəldir ki, bu da Konvensiyanın icrasını və monitorinqini təmin etmək üçün zəruridir. İştirakçı dövlətlər dövlət və özəl təhsil müəssisələrinin əlilliyi olan şəxslərlə məsləhətləşməsini və təhsil sistemi daxilində onların fikirlərinin zəruri səviyyədə nəzərə alınmasını təmin etməlidir.

86. Əlilliyi olan şəxslərin əmək və məşğulluq hüququna (27-ci maddə) dair siyasətlərin qəbulu əlilliyi olan şəxsləri təmsil edən təşkilatlarla sıx məsləhətləşmə şəraitində və onların iştirakı ilə baş verməlidir. Siyasətlər məşğulluğa çıxışa təminat verilməsinə yönəlməli, açıq, inklüziv, ayrı-seçkilikdən azad, əlçatan və rəqabətli əmək bazarlarında və mühitlərində əməyi təşviq etməli, bərabər imkanlar və gender bərabərliyini təmin etməli, əlilliyi olan şəxslər üçün ağlabatan uyğunlaşdırma və dəstəyi nəzərdə tutmalıdır.

87. Adekvat həyat səviyyəsi və sosial müdafiə hüququnun (28-ci maddə) realizə olunması 4-cü maddənin 3-cü bəndi ilə birbaşa qarşılıqlı əlaqəlidir. Əlil təşkilatlarının dövlət siyasətlərində iştirakı yoxsulluq şəraitində yaşayan əlilliyi olan şəxslər və onların ailələrinin kənarda qoyulması, bərabərsizlik və yoxsulluqla üzləşməsi kimi spesifik vəziyyətlərin iştirakçı dövlətlərin səlahiyyətli orqanları tərəfindən həll edilməsini təmin etmək üçün olduqca vacibdir. İştirakçı dövlətlər əlil təşkilatları ilə və işsiz, sabit gəliri olmayan və ya güzəşt və müavinətlərin güman olunan itkisi səbəbilə işləyə bilməyən, kənd yerlərində və ya ucqar ərazilərdə yaşayan, aborigen xalqlara mənsub olan, qadın və yaşlı əlillərlə işləməyə səy göstərməlidir. 28-ci maddənin icrası ilə bağlı tədbirlərin, strategiyaların, proqramların, siyasətlərin və qanunların qəbulu və nəzərdən keçirilməsi zamanı və onların monitorinqi prosesində əlilliyin aktuallaşdırılması və əlilliyi olan şəxslərin tələb və fikirlərinin zəruri səviyyədə nəzərə alınmasını təmin etmək üçün iştirakçı

[45] 4 nömrəli Ümumi Şərh, 7-ci bənd.

dövlətlər əlilliyi olan bütün şəxsləri təmsil edən əlil təşkilatlarını ilə sıx məsləhətləşməli və onları fəal cəlb etməlidir.

88. Əlilliyi olan şəxslərin siyasi və ictimai həyatda iştirak etmək hüququ (29-cu maddə) onların cəmiyyətdə tam və səmərəli şəkildə iştirak etmək və cəlb olunmaq imkanının bərabərliyinin təmin edilməsində son dərəcə əhəmiyyətlidir. Səs vermək və seçilmək hüququ iştirak etmək hüququnun vacib komponentlərindən biridir, çünki seçilmiş nümayəndələr siyasi gündəliyi müəyyən edir və onların hüquq və maraqlarını təşviq edərək Konvensiyanın icrasının və monitorinqinin təmin edilməsində önəmli rol oynayır.

89. İştirakçı dövlətlər yardıma ehtiyacı olan şəxslərin müstəqil şəkildə səs verə bilmələrinə şərait yaratmaq üçün normativ-hüquqi sənədləri əlil təşkilatları ilə sıx məsləhətləşmə şəraitində qəbul etməlidir. Bu, milli və yerli səviyyəli seçkilərdə və milli referendumlarda səsvermə kabinələrində (seçki günü və öncədən səsvermədə) əlilliyi olan şəxslər üçün yardımçı vasitələrin olmasını tələb edə bilər.

90. Məlumat və informasiyaların toplanması prosesində və icrasında geniş spektrli sağlamlıq pozuntularının hamısını və ya bəzilərini təmsil edən şəxslərlə onların əlil təşkilatları vasitəsilə məsləhətləşmələr aparılmalı və onlar cəlb olunmalıdır (31-ci maddə).

91. İştirakçı dövlətlər əlilliyi olan şəxslər və onların Konvensiyada nəzərdə tutulan hüquqlarına çıxışına dair cins, yaş, milli mənsubiyyət, yaşayış yeri (kənd/şəhər), sağlamlıq pozuntusunun növü və sosial-iqtisadi status üzrə təsnifləşdirilmiş, keyfiyyətli, yetərli, vaxtında və etibarlı məlumatlar toplamaq üçün vahid məlumat toplama sistemi yaratmalıdır. Onlar əlil təşkilatları ilə sıx məsləhətləşmə yolu ilə və Əlillik Statistikası üzrə Vaşinqton Qrupundan istifadə etməklə Konvensiyanı həyata keçirmək üçün siyasətlərin hazırlanması və icrasına imkan yaradan sistem yaratmalıdır. Həmçinin, təsəvvürlər və münasibətlər barədə məlumat toplamaq və Vaşinqton Qrupunun kənarda qoyduğu şəxs kateqoriyalarını əhatə etmək üçün əlavə məlumat toplama alətlərindən istifadə edilməlidir.

92. Beynəlxalq əməkdaşlığı (32-ci maddə) qərarlaşdırarkən və ya həyata keçirərkən, əlilliyi olan şəxslərlə onları təmsil edən təşkilatlar vasitəsilə sıx tərəfdaşlıq, əməkdaşlıq və onların cəlb olunması Konvensiyaya uyğun

olaraq inkişaf siyasətlərinin qəbulunda olduqca vacibdir. Beynəlxalq əməkdaşlıq sahəsində plan, proqram və layihələrin, o cümlədən 2030-cu il Gündəliyinin və 2015-2030-cu illərdə Fəlakət Riskinin Azaldılması üzrə Senday Çərçivəsinin hazırlanması, icrası və monitorinqinin hər bir mərhələsində əlil təşkilatları ilə məsləhətləşmə aparılmalı və onlar cəlb edilməlidir.

93. 34-cü maddənin 3-cü bəndi Komitəyə üzvlük üçün müvafiq meyarlara əməl etmə baxımından vacibdir. O, iştirakçı dövlətlərdən namizədləri irəli sürərkən, 4-cü maddənin 3-cü bəndinə lazımi səviyyədə diqqət yetirməyi tələb edir. Buna görə də, iştirakçı dövlətlər Komitəyə namizədləri irəli sürərkən, əlil təşkilatları ilə yaxından məsləhətləşməli və onları fəal şəkildə cəlb etməlidir. Əlil təşkilatlarının cəlb olunduğu və məsləhətləşmə nəticələrinin nəzərə alındığı və yekun təqdimatda əksini tapdığı şəffaf və iştirakçılığı ehtiva edən prosedurlar üçün milli qanunvericilik çərçivələri və prosedurları qəbul edilməlidir.

## V. Milli səviyyədə icra

94. Komitə qəbul edir ki, iştirakçı dövlətlər əlilliyi olan şəxslərin Konvensiyanın icrasına yönələn qanun və siyasətlərin hazırlanması, icrası və monitorinqinə cəlb olunmaq və onlarla məsləhətləşmənin aparılması hüququnun həyata keçirilməsində çətinliklərlə üzləşir. İştirakçı dövlətlər 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinin tam icrasını təmin etmək məqsədilə, digərləri ilə yanaşı, aşağıdakı tədbirləri görməlidir:

(a) Sağlamlıq pozuntusunun növündən asılı olmayaraq, əlilliyi olan şəxslərin öz əlil təşkilatları vasitəsilə fəal cəlb olunmasına və onlarla sıx məsləhətləşmənin aparılmasına imkan verməyən bütün qanunları, o cümlədə hüquq qabiliyyətindən məhrum edən qanunları ləğv etmək;

(b) Əlil təşkilatlarının yaradılması və dayanıqlı fəaliyyətinə şərait yaradan siyasət çərçivəsi qəbul etməklə, əlil təşkilatlarının yaradılması və fəaliyyəti üçün əlverişli mühit yaratmaq. Buraya onların dövlətdən asılılığının olmamasına və müstəqilliyinə təminat verilməsi, dövlət maliyyələşməsi və beynəlxalq əməkdaşlıq daxil olmaqla adekvat maliyyələşdirmə mexanizmlərinin yaradılması, icrası və onlara çıxışın təmin

edilməsi, eləcə də imkanların artırılması və potensialının gücləndirilməsi üçün texniki yardım da daxil olmaqla dəstəyin təmin edilməsi daxildir.

(c) Konvensiyada nəzərdə tutulan hüquqlarını milli və beynəlxalq səviyyələrdə təşviq edən fərd və təşkilatlara qarşı hər hansı hədə-qorxu, təzyiq və ya qisas tədbirlərini qadağan etmək. İştirakçı dövlətlər həmçinin, əlilliyi olan şəxsləri və onları  təmsil edən təşkilatları Komitə və ya digər beynəlxalq qurumlar və insan hüquqları mexanizmləri ilə əməkdaşlıq kimi hallarla əlaqədar hədə-qorxu, təzyiq və qisas tədbirlərindən qorumaq üçün mexanizmlər qəbul etməlidir;

(d) Əlilliyi olan şəxslərin, o cümlədən ən az təmsil olunanların monitorinq prosesinə qoşulmasını və tam iştirakını təmin etmək üçün öz üzvlərinin fəaliyyətlərini əlaqələndirən və təmsil edən çətir əlil təşkilatlarının və müxtəlif sağlamlıq pozuntuları olan əlilliyi olan şəxslərin fərdi təşkilatlarının yaradılmasını təşviq etmək. Əgər hər hansı iştirakçı dövlət hər bir əlil təşkilatını qərar proseslərinə cəlb etməklə bağlı əngəllərlə qarşılaşırsa, onlar bu cür təşkilatların nümayəndələrini çətir təşkilat və ya əlil təşkilatlarının koalisiyası vasitəsilə daxil edə bilmədikdə, onları daimi və ya müvəqqəti işçi qruplarına və s.-ə daxil edə bilərlər;

(e) Əlil təşkilatlarının iştirak və cəlb olunma hüququnu tanıyan qanun və siyasətlər, eləcə də hakimiyyət və qərar qəbulunun bütün səviyyələrində məsləhətləşmələr üçün aydın prosedurlar müəyyən edən qaydalar qəbul etmək. Bu qanunvericilik və siyasət çərçivəsi qərarların qəbulundan əvvəl ictimai dinləmələrin keçirilməsinin icbariliyini nəzərdə tutmalı və konkret vaxt çərçivələrinin müəyyən edilməsini, məsləhətləşmələrin əlçatanlığını tələb edən müddəalar və ağlabatan uyğunlaşdırma və dəstəyi təmin etmək öhdəliyini əks etdirməlidir. Bu, qanunlarda və digər normativ-hüquqi sənədlərdə əlil təşkilatlarının iştirakını və onların nümayəndələrinin seçilməsini birbaşa qeyd etməklə edilə bilər;

(f) Əlil təşkilatları ilə daimi məsləhətləşmə mexanizmləri, o cümlədən dəyirmi masa müzakirələri, birgə dialoqlar, ictimai dinləmələr, sorğular və onlayn məsləhətləşmə mexanizmləri yaratmaq, bu zaman 11, 12 və 50-ci maddələrdə göstərildiyi kimi, onların müxtəlifliyinə və müstəqilliyinə hörmət etmək. Bu, həmçinin, milli məşvərətçi şura formasında, məsələn, əlil təşkilatlarını təmsil edən əlillik məsələləri üzrə təmsilçi milli şura kimi yaradıla bilər.

(g) Ən müxtəlif xüsusiyyətləri, o cümlədən doğum və sağlamlıq vəziyyəti, yaş, irq, cins, dil, milli, etnik və ya sosial mənşə, cinsi oriyentasiya və gender kimliyi, interseks variasiyalar, dini və siyasi mənsubiyyət, miqrasiya statusu, sağlamlıq pozuntularının qrupları və ya digər əlamətləri əks etdirən əlil təşkilatları vasitəsilə əlilliyi olan şəxslərin iştirakına təminat vermək və dəstək göstərmək;

(h) Əlilliyi olan qadın və qızları təmsil edən əlil təşkilatları ilə işləmək və onların təhlükəsiz şəraitdə, xüsusilə qadın hüquqları və gender bərabərliyi, eləcə də cinsi zorakılıq və təhqir daxil olmaqla qadınlara qarşı gender əsaslı zorakılıqla bağlı siyasətlərin hazırlanmasına dair bütün dövlət qərarlarının qəbulu proseslərində birbaşa iştirakını təmin etmək;

(i) Əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə, əlilliyi olan uşaqlar və qadınlar da daxil olmaqla əlilliyi olan şəxsləri bütün səviyyələrdə, xüsusən də onlara toxunan məsələlərdə, o cümlədən risk vəziyyətlərində və fövqəladə humanitar vəziyyətlərdə dövlət qərarlarının qəbulu proseslərinin planlaşdırılması, həyata keçirilməsi, monitorinqi və ölçülməsinə fəal şəkildə cəlb etmək və onlarla məsləhətləşmək, bu məqsədlə öz fikirlərini təqdim etmələri üçün ağlabatan və real vaxt çərçivəsi vermək və kifayət qədər maliyyə və dəstək təmin etmək;

(j) Əlil təşkilatlarının və ya əlil qruplarının, o cümlədən dəstəkləyici qismində əlilliyi olan şəxslərin valideynlərinin və ailələrinin qruplarının yaradılmasını, potensialının gücləndirilməsini, maliyyələşdirilməsini və qərar qəbulu proseslərinin bütün səviyyələrində iştirakını həvəsləndirmək və dəstək göstərmək. Buraya yerli, milli, regional (o cümlədən regional inteqrasiya təşkilatları çərçivəsində) və ya beynəlxalq səviyyələrdə, eləcə də siyasət və proqramların konsepsiyasının hazırlanmasında, onların yenidən formalaşdırılmasında və icrasında fəaliyyət daxildir;

(k) İştirakçı dövlətlərin 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndinə əməl etməsinin monitorinqini təmin etmək və əlil təşkilatlarının bu monitorinqdə rəhbər rol oynamasına dəstək göstərmək;

(l) Əlil təşkilatlarının iştirakı ilə, iştirakçı dövlətlərin 4-cü maddənin 3-cü bəndi və 33-cü maddənin 3-cü bəndindən irəli gələn öhdəliklərinə əməl etməmə hallarına görə təsirli sanksiya və hüquqi müdafiə vasitələrini

özündə əks etdirən effektiv əməletmə mexanizmlərini hazırlamaq və tətbiq etmək;

(m) Bütün əlilliyi olan şəxslər, o cümlədən xüsusi müəssisələrdə və ya psixiatrik xəstəxanalarda təcrid olunmuş şəxslər və autizmli şəxslər üçün ağlabatan uyğunlaşdırmalar, eləcə də bütün obyektlərin, materialların, görüşlərin, materialların təqdim edilməsi üçün müraciətlərin, prosedurların və informasiya və məlumatların əlçatanlığını təmin etmək;

(n) Əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə dövlət qərarlarının qəbulu, məsləhətləşmə və monitorinq proseslərində iştirakı üçün əlillik və yaşa uyğun yardım təmin etmək. Konvensiyanın icrası üçün məsləhətləşmə proseslərində əlilliyi olan uşaqların iştirakını təmin etmək üçün inklüziv, uşaqyönümlü, şəffaf və onların ifadə və fikir azadlığı hüquqlarına hörmət edən strategiyalar işləyib hazırlamaq;

(o) Məsləhətləşmə və prosedurları açıq, şəffaf və anlaşıqlı formatlarda, eləcə də bütün əlil təşkilatlarını cəlb etməklə keçirmək;

(p) Əlil təşkilatlarının milli və beynəlxalq mənbələrdən, o cümlədən fiziki şəxslərdən və şirkətlərdən, vətəndaş cəmiyyəti təşkilatlarından, iştirakçı dövlətlərdən və beynəlxalq təşkilatlardan maliyyə və digər formalarda resurslar qəbul etmək və ya bu məqsədlə müraciət etmək, o cümlədən vergi azadolmalarına və milli lotereyaların keçirilməsindən əldə olunan gəlirlərə çıxış imkanına malik olmasını təmin etmək;

(q) Qanunvericiliyin spesifik olaraq əlilliklə bağlı olmayan sahələrindəki mövcud məsləhətləşmə prosedurlarını əlilliyi olan şəxsləri təmsil edən təşkilatlar vasitəsilə əlilliyi olan şəxslər üçün əlçatan etmək və onların bu məsləhətləşmələrə qoşulmasını təmin etmək;

(r) Əlilliyi olan şəxsləri onları təmsil edən təşkilatlar vasitəsilə, dövlət büdcəsinin tərtibi proseslərinə, milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqinə, beynəlxalq qərarların qəbulu proseslərinə və digər iştirakçı dövlətlərlə beynəlxalq əməkdaşlığa fəal cəlb etmək və onlarla sıx məsləhətləşmə aparmaq, eləcə də milli səviyyədə 2030-cu il Gündəliyinin icrası və monitorinqi zamanı əlilliyi olan şəxslərin hüquqlarını və fikirlərini inteqrasiya edən inkişaf siyasətləri qəbul etmək;

(s) Əlilliyi olan şəxslərin Hökumətin bütün səviyyələrindəki əlaqələndirici mərkəzlərdə və koordinasiya mexanizmlərində iştirakını, təmsil olunmasını və onlara asan çıxışını, eləcə də müstəqil monitorinq strukturları ilə əməkdaşlığını və onlarda təmsil olunmasını təmin etmək;

(t) Əlilliyi olan şəxslərin onları təmsil edən təşkilatlar vasitəsilə regional və qlobal səviyyələrdə beynəlxalq insan hüquqları mexanizmlərində iştirakını və cəlb olunmasını təşviq etmək və təmin etmək;

(u) Əlil təşkilatları ilə sıx məsləhətləşmə şəraitində səmərəli iştirakın yoxlana bilən göstəricilərini, konkret vaxt çərçivələrini və icra və monitorinqlə bağlı öhdəlikləri müəyyən etmək. Bu cür iştirak, məsələn, onların qanunlara dəyişikliklərin edilməsi üçün təkliflərlə əlaqəli iştirakının miqyasını izah etməklə və ya qərar qəbulu proseslərinə cəlb olunan bu cür təşkilatların nümayəndələrinin sayı barədə məlumat verməklə ölçülə bilər.